

Bakıda "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda konfrans keçirilib

5

# Qalib LİDERİN xilaskarlıq çağırışı:

2

# "BİZ BİRLİKDƏ GÜCLÜYÜK!"



2020-ci il çətinliklər ili olsa da, sonda Qalib İl oldu. Birlikdə həmrəylik göstərərək 2020-ci il noyabrın 10-u - Azərbaycan Qarabağa qovuşdu, tarixi...

Səs

№ 234 (6434) 22 dekabr 2021-ci il. Qiymәti 40 qәpik

# Ermənistanda HƏYƏCAN TƏBİLİ:

## "Əhali gələn il daha pis yaşayacaq!"

"Ermənistan vətəndaşları 2022-ci ilin dövlət büdcəsinə görə gələn il builkindən də pis vəziyyətdə yaşayacaqlar". "İki sahil" "Aysor"a istinadən xəbər verir ki, bunu iqtisadçı, Ermənistan parlamentindəki "Ermənistan" fraksiyasının üzvü, deputat Tadevos Avetisyan gələn ilin dövlət büdcəsindən danışarkən bildirib.

Onun sözlərinə görə, 2022-ci il yanvarın 1-dən dövlət məmurlarının aylıq əməkhaqlarının baza hissəsi artmayıb: "585 min təqaüdçü, 485 min sosial güzəştlilərin aldıqları vəsait də, gələnilki büdcə də artmayıb".

Onun sözlərinə görə, 2019-cu illə müqayisədə yoxsulluq 0,6 faiz artmışdısa, bu, 2021-ci ildə sürətlənib, 2022-ci ildə isə bu temp saxlanılacaq.



## "Azərbaycanın gələcək inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır"

4

"Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Ötən il Azərbaycanın əldə etdiyi şanlı qələbədən...



## Türkiyə və Ermənistanın xüsusi nümayəndələri görüşəcək

"Regionda Ermənistanla son zamanlar etimadı artıran əlaqələrimiz davam edir. Birbaşa əlaqələrimiz üçün qarşılıqlı xüsusi nümayəndələrimizi təyin etdik və ən qısa zamanda xüsusi...



9

## Ronaldodan xeyirxah addım: formasını xeyriyyə hərracına bağışladı

16



"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo formasını xeyriyyə hərracına bağışlayıb. Qol.az "La Provinicia"ya istinadən xəbər verir ki, 36 yaşlı hücumçu Kanar arxipelaqına məxsus Palma adasında Kumbre Vyexa vulkanının püskürməsi nəticəsində zərər çəkənlərə maliyyə yardımı toplamaq üçün...



## İordaniyalı akademik: "Prezident İlham Əliyev yubileyini parlaq və ardıcıl qələbələrlə qeyd edir"

4



## "Zəngəzur dəhlizinin açılması siyasi etimadın möhkəmlənməsinə xidmət edəcək"

13

"Brüssel görüşündən sonra Ermənistanla Azərbaycan arasında münasibətlərin daha normal məcraya keçməsi ilə bağlı...



## Azərbaycan- Aİ yaxınlaşmalarına Rusiya necə reaksiya verəcək?

10

"Son vaxtlar Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni mərhələ başlayıb. Xüsusilə Avropa İttifaqı ilə əlaqələrimiz...

# Qalib LİDERİN xilaskarlıq çağırışı:

# "BİZ BİRLİKDƏ GÜCLÜYÜK!"



2020-ci il çətinliklər ili olsa da, sonda Qalib İl oldu. Birlikdə həmrəylik göstərərək 2020-ci il noyabrın 10-u - Azərbaycan Qarabağa qovuşdu, tarixi ədalət bərpa olundu, bütövləşdik, Qarabağ Azərbaycanımız olduğumuzu dünyaya sübut etdik. Həmçinin də, əsrin bəlası olan, bütün dünya üçün bir nömrəli problem olan COVİD-19 pandemiyası bir çox ölkənin sarsılmaz görünən iqtisadiyyatını iflasa uğratdı, aparıcı Avropa ölkələrinin səhiyyə sisteminin acizliyini üzə çıxardı. Bugünkü şəraitdə bütün sahələrində həyata keçirilən tədbirlər və əldə olunan real nəticələrin müəllifi Qalib Lider Prezident İlham Əliyev ilk günlərdən pandemiya ilə mübarizə istiqamətində "Biz birlikdə güclüyük!" şüarı ilə zəruri addımlar atdı və "Biz birlikdə güclüyük" şüarı ilə pandemiyaya qarşı savaşan Azərbaycan görünməmiş nümunə yarada bilib. Prezident İlham Əliyevin dediyi kimi: "Artıq Ümumdünya Səhiyyə Təşkilatı "Azərbaycan modeli" haqqında danışır, görülən işlərə yüksək qiymət verir, bir neçə dəfə Azərbaycanı nümunəvi ölkə kimi təqdim etmişdir". Azərbaycan Prezidenti Azərbaycan pandemiya istiqamətdə bir sıra vacib və dəyərli təşəbbüslərlə çıxış edərək dünyanın bütün təşkilatları, aparıcı dövlətlərini bu gün də həmrəyliyə çağırır. Bu isə Azərbaycanın pandemiyaya qarşı ölkə daxilində ardıcıl mübarizə aparması ona beynəlxalq miqyasda da böyük rəğbət qazandırıb. Azərbaycan beynəlxalq məsuliyyətinə sadiq olaraq könüllü şəkildə Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) 10 milyon ABŞ dolları həcmində, eləcə də 30-dan çox ölkəyə koronavirusla mübarizədə birbaşa humanitar və maliyyə yardımları edib. Azərbaycanın pandemiya ilə uğurlu mübarizəsi ÜST tərəfindən dəyərləndirilib, digər ölkələrə nümunə göstərilib.

Pandemiyaya qarşı mübarizədə "Azərbaycan nümunəsi" hər kəsə örnək kimi göstərilir. Bu müstəvidə Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin səfərbər edilməsi sahəsində qlobal liderliyini davam etdirir. Sirr deyil ki, Hərəkat son on illərdə ən qüdrətli çağını məhz Prezident İlham Əliyevin sədrliyi dönəmində keçirir. Hərəkata sədrliyi dövründə Azərbaycanın Qoşulmama Hərəkatı üçün müfəssəl və iddialı qlobal fəaliyyət planı hazırlaması, COVİD-19 pandemiyasının dünyanı bürüməsi, yeni vəziyyətə Azərbaycanın cəld və adekvat reaksiyası, Azərbaycanın pandemiyaya qarşı qlobal səylərin səfərbər edilməsi istiqamətində irəli sürdüyü beynəlxalq təşəbbüslər Prezident İlham Əliyevin dövlətimizin nüfuzunu yüksəlməsi istiqamətində uğuru kimi səciyyələndirilir. Azərbaycanın koronavirus pandemiyası ilə apardığı mübarizə bir daha onu göstərdi ki, ölkəmiz bu istiqamətdə qlobal səviyyədə liderliyini davam etdirir. Çünki Azərbaycan bəzi ölkələr kimi pandemiya ilə mübarizədə yaxasını kənara çəkmədi, əksinə, bütün müstəvilərdə xəstəliklə mübarizə zəminində hətta dünyaya da öz töhfəsini verdi. Pandemiyanın öhdəsindən gəlmək üçün beynəlxalq həmrəyliyi və əməkdaşlığı təbliğ edən ilk ölkələrdən oldu.

## DÜNYADA AZƏRBAYCANA OLAN İNAMIN VƏ ETİMADIN GÖSTƏRİCİSİ - BMT PREZİDENT İLHAM ƏLİYEVİN TƏŞƏBBÜSÜNÜ DƏSTƏKLƏYİR

Prezident İlham Əliyevin dediyi kimi: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur". Bu, aksiomadır. Bu gün bütün sahələrdə nümunə göstərən Azərbaycan bölgənin lider dövlətlərindən olaraq pandemiyaya qarşı mübarizədə göstərdiyi nümunə diqqətəlayiqdir. Hazırda Azərbaycan yoluxanların və vəfat edənlərin sayının azlığına, habelə yoluxma və sağalma hallarının nisbətinə görə ən yaxşı nəticələr nümayiş etdirən ölkələr sırasındadır. Azərbaycan dövləti infeksiyasının yayıldığı ilk günlərdən vəziyyəti nəzarətə götürüb, genişmiqyaslı tədbirlər həyata keçirməyə başlayıb, istər insanların sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi, istərsə də koronavirus xəstələrinin müalicəsi, səhiyyə infrastrukturunun təkmilləşdirilməsi, yeni xəstəxanaların açılması və tibb müəssisələrinin texniki təchizatı baxımından bütün məsələləri uğurla həll edib. Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasət bir daha göstərir ki, dövlətimiz üçün insan amili, vətəndaşların sağlamlığı, təhlükəsizliyi, ölkəmizin inkişafı və cəmiyyətimizin rifahı başlıca vəzifədir və bu məqsədə nail olmaq üçün bütün vasitələrdən istifadə olunur.

Qeyd edək ki, dünyanın bir çox ölkəsi ötən ilin dekabrından əhalini koronavirus infeksiyasına qarşı peyvəndlənməsinə başlayıb. Ölkəmizdə COVID-19-a qarşı vaksinasiyaya yanvarın 18-də start verilib və hazırda tam sürətlə davam edir. MDB ölkələrində koronavirusa qarşı peyvəndləmənin səviyyəsi barədə məlumatlara əsasən regionda peyvəndləməyə ilk başlayan ölkələrdən biri olan Azərbaycan həm peyvənd olunma həcminə, həm də ondan istifadə sürətinə görə əksər ölkələri qabaqlayır. Belə ki, milli peyvəndləmə strategiyasına uyğun olaraq, sifariş edilmiş 4 milyon doza "CoronaVac" peyvəndi vasitəsi ilə risk qruplarına aid şəxslərin peyvəndlənməsi aparılır. Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə Azərbaycan Prezidenti "peyvənd millətçiliyi", varlı və kasıb ölkələr arasında peyvəndlərə əlçatanlıqla bağlı getdikcə dərinləşən qeyri-bərabərliyə qarşı mübarizəni daim gündəlikdə saxlayıb. Azərbaycan indiyədək 80-ə yaxın ölkəyə birbaşa və ÜST xətti ilə maliyyə və humanitar yardım edib, bir sıra ölkələrə təmənnasız olaraq COVİD-19 əleyhinə vaksinlər göndərib.

Heç təsadüfi deyil ki, Prezidentt İlham Əliyevin tapşırığı ilə Azərbaycan Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamə 2021-ci ilin mart ayında yekdilliklə qəbul olunması ayrıseçkiliyi göstərən ilk çıxış idi. Azərbaycanın təşəbbüsü ilə BMT Baş Assambleyasında peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi ilə bağlı qəbul edilən qətnaməyə bitərəf olan 7 ölkədən birinin Ermənistan olması heç də təsadüfi deyildi. Bu, Ermənistanın bütün məsələlərə siyasi prizmadan baxmasının, Azərbaycanın nailiyyətlərini qısqanclıqla qarşılamasının daha bir bariz nümunəsidir. Hazırda isə regionda ən effektiv mübarizə üsulunu məhz Azərbaycan həyata keçirir. Belə ki, onu da vurğulamaq lazımdır ki, Azərbaycan koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları edib. Həmçinin Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə töhfəsi ayırıb, bu yaxınlarda dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin təqdim edib.Heç təsadüfi deyil ki, dekabrın 16-da BMT-nin Baş Assambleyasında Azərbaycan tərəfindən Qoşulmama Hərəkatının adından irəli sürülmüş COVID-19 əleyhinə peyvəndlərə 179 ölkənin dəstəyi ilə qəbul edilən qətnamənin əleyhinə heç bir ölkə səs verməyib. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi siyasətin nə dərəcədə güclü olduğunun göstəricisidir.

## PREZİDENT İLHAM ƏLİYEV: "BƏLKƏ DƏ DÜNYADA ÖZ VƏTƏNDAŞINA BU QƏDƏR QAYĞI VƏ DİQQƏT GÖSTƏRƏN İKİNCİ ÖLKƏ YOXDUR"

Prezident İlham Əliyev: "Bəlkə də dünyada öz vətəndaşına bu qədər qayğı və diqqət göstərən ikinci ölkə yoxdur". Bu, aksiomadır. Bəli, dövlət başçısı çıxışlarında dəfələrlə bu cavabı verib. Və ölkə başçısının bu cavabı Azərbaycan dövlətinin sosial siyasətinin fəlsəfəsi, iqtisadi inkişafın nəticələrinin əhalinin rifah halının yüksəldilməsinə yönəldilən real sübutudur. Bu prinsip hər gün daha geniş şəkildə davam etdirilir. Məhz bu gün Ümumdünya Səhiyyə Təşkilatı Prezident İlham Əliyevin liderliyini alqışlaması dünyada Azərbaycan Prezidentinə, apardığı siyasətə inamın və etimadın göstəricisidir.

Ümumiyyətlə, bütün bu uğurlar onu deməyə əsas verir ki, artıq ölkəmiz, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir, təşəbbüsləri dünya miqyasında beynəlxalq həmrəyliyin və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində mühüm nümunədir.

## "AZƏRBAYCAN DÜNYA MİQYASINDA NADİR ÖLKƏLƏRDƏNDİR Kİ, KORONAVİRUSA YOLUXAN BÜTÜN XƏSTƏLƏR TİBBİ MÜƏSSİSƏLƏRDƏ MÜALİCƏ ALIR"

Bu gün Azərbaycan xalqı böüyük qürur hissi keçirməklə, sabaha və gələcəyə böyük ümidlə gedir. Çünki Azərbaycan xalqı gördü ki, Prezident İlham Əliyev son 18 illik prezidentlik fəaliyyəti müddətində Azərbaycanda vətəndaş amili hər zaman ön planda olub. "Mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olub. Koronavirus pandemiyası başlayandan bu günə qədər Azərbaycan dövləti çox böyük məsuliyyət göstərib, ilk növbədə, ölkə daxilində. Çünki iki seçim var idi - ya iqtisadiyyatı xilas etmək, ya da insanların sağlamlığını. Şəxsən mənim üçün birmənalı qaydada tərəddüdsüz insanların sağlamlığı həmişə birinci yerdə olubdur, o cümlədən pandemiya dövründə. Ona görə biz şüurlu şəkildə, bunun iqtisadi fəallığımıza mənfi təsir göstərəcəyini bilərək məhdudlaşdırıcı addımlara getdik", - deyən ölkə başçısı İlham Əliyev bir daha sübut etdi ki, Azərbaycanda vətəndaş amili hər zaman ön planda tutulur.

Ölkə rəhbəri daha bir çıxışlarında qeyd edir ki, "Bizim əsas vəzifəmiz insanları bu xəstəlikdən qorumaqdır, onların həyatını xilas etməkdir. Əlbəttə ki, itkilərimiz də olub, amma bəzi ölkələrlə müqayisədə Azərbaycandakı vəziyyət qat-qat yaxşıdır. Bu, onu göstərir ki, düşünülmüş siyasət, xalqla iqtidar arasında birlik, dövlətin addımlarına yüksək inam olan yerdə nəticə də olur".

Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycan dünya miqyasında nadir ölkələrdəndir ki, koronavirusa yoluxan bütün xəstələr tibbi müəssisələrdə müalicə alır. Dövlət başçısının da vurğuladığı kimi, dünya praktikası tam başqadır. Bir çox ölkələrdə xəstəliyi simptomsuz keçirənlər, xəstəliyə düçar olmuş insanlar ev şəraitində müalicə alırlar, onları heç xəstəxanalara da qəbul etmirlər. Əlbəttə ki, bu, onların sağlamlığına təhlükə yaradır. Azərbaycanda koronavirusdan ölənlərin sayının az olmasının səbəblərindən biri də məhz odur ki, yoluxmuş bütün xəstələr tibbi müəssisələrə qəbul edilir və onlara lazımi xidmət göstərilir.

Bir sözlə, əminliklə demək olar ki, bütün sahələrdə Azərbaycan xalqını uğurlu gələcəyə aparan Qalib Lider İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla addımlayacaq və dövlət başçımızın dediyi kimi - "Əminəm ki, dövlətimiz və xalqımız bu sınaqdan da üzüağ çıxacaq".

*RƏFİQƏ HÜSEYNOVA*



# Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri bütün sahələrdə daim inkişaf edir

*Prezident İlham Əliyev Türkiyənin energetika və təbii sərvətlər nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməzi qəbul edib. AZƏRTAC xəbər verir ki, nazir Fatih Dönməz Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə daim inkişaf etdiyi vurğulandı, enerji sahəsində əməkdaşlığın ötən illərdə olduğu kimi davam etdirilməsi məmnunluqla qeyd edildi.

Söhbət zamanı Azərbaycan və Türkiyənin birgə həyata keçirdikləri qlobal enerji layihələrinin əhəmiyyəti qeyd olundu, nazir Fatih Dönməzin səfərinin enerji sahəsində əməkdaşlığın inkişaf perspektivlərinin müzakirəsi üçün yaxşı imkan olduğu bildirildi.

Görüşdə Bakıda keçiriləcək Azərbaycan-Türkiyə 1-ci Enerji Forumunun ölkələrimiz arasında energetika sahəsində əməkdaşlığın genişləndirilməsi, yeni istiqamətlərin müəyyənləşdirilməsi, konkret layihələrin müzakirəsi üçün yeni bir platforma olduğu bildirildi.

## Şamil Ayrım: Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha uca zirvələri fəth edəcək

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu qardaş ölkəmizin otuz il üz-üzə qaldığı mənfur işğala son qoydu. Qədirbilən Azərbaycan xalqı əbədiyyətə qədər bu tarixi hərbi Zəfəri unutmayacaq. Bu tarixi Qələbə yalnız torpaqların azad edilməsi deyil, həm də bəşəri dəyərlərin qorunmasının təntənəsidir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri Şamil Ayrım söyləyib.



Müzəffər Ali Baş Komandan, Türk Dünyasının Ali Ordeninə layiq görülmüş Prezident İlham Əliyevə 60 illik yubileyi münasibətilə ən xoş arzularını çatdıran Şamil Ayrım deyib: "Başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla bütün Türkiyə xalqı 44 günlük Vətən savaşında hansı məhəbbətlə Azərbaycanın yanında olubsa, bundan sonra da bütün varlığımızla can Azərbaycanla birlikdəyik".

Ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını xatırladan Şamil Ayrım əminliklə bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan daha uca zirvələri fəth edəcək və Cənubi Qafqazdakı sülh prosesini əzmlə sona çatdıracaq. Deputat deyib: "Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı Qələbə regionda sülh və sabitliyi təmin edəcək. Bu, isə bütün insanların, ölkələrin və xalqların ülvi arzusudur".

# Prezident İlham Əliyev Gürcüstanın müdafiə nazirini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Gürcüstanın müdafiə naziri Cuanşer Burçuladzeni qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan-Gürcüstan ikitərəfli dostluq münasibətlərinin müxtəlif istiqamətlərdə, o cümlədən hərbi əməkdaşlıq sahəsində inkişafından məmnunluq bildirildi. Gürcüstanın müdafiə nazirinin ölkəmizə səfərinin əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyinə ümidvarlıq ifadə olundu.

## Putin və Makron Qarabağdakı vəziyyəti müzakirə ediblər

**Rusiya prezidenti Vladimir Putin və Fransa prezidenti Emmanuel Makron arasında telefon danışığı olub. Kremlin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, iki ölkənin liderləri Avropa qitəsində sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi məsələlərini müzakirə ediblər.**



Telefon danışığı zamanı Qarabağ ətrafındakı vəziyyətlə bağlı fikir mübadiləsi də aparılıb. Regionda vəziyyətin sabitləşməsi və dinc həyatın bərqərar olması, iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində göstərilən səylərdən məmnunluq ifadə olunub. Qeyd edilib ki, Rusiya və Fransa bu məsələlərin həlli üzrə hazırda və gələcəkdə sinxron hərəkət etmək niyyətindədirlər.

## İspandilli mətbuat Azərbaycan tərəfindən Ermənistana 10 hərbi qulluqçunun təhvil verilməsindən yazır

İspaniyanın EFE xəbər agentliyi, beynəlxalq SWI (İsveçrə İctimai Teleradioyayım Korporasiyası) onlayn-platformanın ispandilli versiyası "swissinfo.ch" və "holanews.com" "Bakı sərhədyanı ərazidə tutulan 10 hərbi qulluqçunu Yerevana təhvil verib" sərlövhəli məqalə dərc ediblər.

AZƏRTAC xəbər verir ki, ispandilli mətbuat Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına istinadla Ermənistan silahlı qüvvələrinin noyabrın 16-da dövlət sərhədi istiqamətində təxribat törədərək tutulan 10 erməni hərbçinin Bakı tərəfindən Yerevana təhvil verilməsindən yazır.

Materiallarda vurğulanır ki, tutulan hərbçilərin təhvil verilməsi Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin Brüsseldə dekabrın 14-də təşkil olunan üçtərəfli görüşün nəticəsi olaraq həyata keçirilib.



SWI swissinfo.ch
Iniciar sesión Menú

Bakú entrega a Ereván diez prisioneros detenidos en conflicto fronterizo

19 diciembre 2021 - 08:23

Bakú, 19 dic (EFE).- Bakú entregó hoy a Ereván a 10 militares armenios detenidos durante los enfrentamientos fronterizos ocurridos el pasado 16 de noviembre, según informó la Comisión Estatal de prisioneros, desaparecidos y retenidos de Azerbaiyán.

Los prisioneros fueron entregados en correspondencia con los acuerdos alcanzados durante el encuentro trilateral del pasado 14 de diciembre en Bruselas entre el presidente azerbaiyano Ilham Alíev, el primer ministro armenio, Nikol...

SWI swissinfo.ch - unidad empresarial de la sociedad sui... radio y televisión SRG SSR



Edición España Mundo

AZERBAIYÁN ARMENIA

Bakú entrega a Ereván diez prisioneros detenidos en conflicto fronterizo

EFE | Bakú | 19 dic. 2021



El presidente de Azerbaiyán, Ilham Aliev, en una imagen de archivo. EFE/Sedat Suna

Menéame

Bakú entregó hoy a Ereván a 10 militares armenios detenidos durante los enfrentamientos fronterizos ocurridos el pasado 16 de noviembre, según informó la Comisión Estatal de prisioneros, desaparecidos y retenidos de Azerbaiyán.

Los prisioneros fueron entregados en correspon-

Qeyd olunur ki, dekabrın əvvəlində mina xəritələrinin müqabilində Azərbaycan Kəlbəcər rayonunda döyüşlər zamanı tutulan 10 erməni hərbi qulluqçunu da azad edib.

# “Azərbaycanın gələcək inkişafı Prezident İlham Əliyevin adı ilə bağlıdır”



**”Azərbaycan öz inkişafının yeni mərhələsinə qədəm qoyub. Ötən il Azərbaycanın əldə etdiyi şanlı qələbədən, böyük Zəfərdən sonra nəinki Cənubi Qafqaz regionunda, bütövlükdə Avrasiya məkanında yeni reallıqlar yaranıb”. SİA-nın məlumatına görə, bu fikirləri YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bu gün jurnalistlərə açıqlamasında deyib.**

Tahir Budaqov bildirib ki, Azərbaycan bundan öncə də regionumuzda əsas güc mərkəzi kimi bu bölgənin inkişafına təkan verən ölkə qismində çıxış edib. Yeni mərhələdə də artıq yeni imkanlar əldə edilib və ölkəmiz bundan sonra da regionun inkişafına öz töhfəsini verməkdədir. Onun sözlərinə görə, Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə ”Azərbaycanın inkişaf modeli: Dünən, bu gün, sabah” mövzusunda keçirilən konfransda çıxış edən dövlət və hökumət rəsmiləri, Milli Məclisin nümayəndələri Azərbaycanın bu günə qədər müxtəlif sahələrdə əldə etdiyi uğurları və bundan sonra qarşısında duran perspektivlər barədə ətraflı fikirlərini bildirdilər.

”Tədbii ki, bütün çıxışların yekunu olaraq bir daha belə qənaətə gəlmək olar ki, Azərbaycanın inkişafı yalnız ulu öndər Heydər Əliyev ideyalarının həyata keçirilməsi ilə şərtlənir. Bu yolun alternativi yoxdur və Yeni Azərbaycan Partiyasının Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 60 illik yubileyinə həsr etdiyi kitabda da qeyd olunur ki, Azərbaycanın gələcək inkişafı bu böyük yolun müzəffər davamçısı hörmətli Prezidentimiz İlham Əliyevin adı ilə bağlıdır. Düşünürəm ki, bu böyük yolun davamı Azərbaycan xalqına, Azərbaycan dövlətinə hələ bundan sonra da çoxsaylı qələbələr, zirvələr qazandıracaq”-deyə, YAP Sədrinin müavini vurğulayıb.

# İordaniyalı akademik: “Prezident İlham Əliyev yubileyini parlaq və ardıcıl qələbələrlə qeyd edir”



**Azərbaycan Prezidenti İlham Əliyev mənalı və xalqına xidmətə həsr etdiyi həyatının altmışıncı ilini parlaq və ardıcıl qələbələrlə qeyd edir. Dahi siyasi xadim Heydər Əliyev sayəsində dünyaya günəş kimi işıq saçan Azərbaycan bu gün də etibarlı əllərdədir. İqtisadi qüdrəti, beynəlxalq nüfuzu və böyük gələcəyi olan ölkəniz, eyni zamanda, XXI əsr tarixinə torpaqlarını düşmən tapdağından azad edən dövlət kimi düşdü. Bu möhtəşəm Qələbə məhz Prezident İlham Əliyevin siyasi və hərbi məharəti nəticəsində mümkün oldu.**

Bu sözləri AZƏRTAC-ın xüsusi müxbirinə müsahibəsində iordaniyalı akademik Mərvan Suda söyləyib.

O bildirib: ”Prezident İlham Əliyev yubileyini ona sonsuz etimadı olan və hər zaman mənafeyi uğrunda fəaliyyət göstərdiyi xalqı ilə birlikdə qeyd edir. Azərbaycanın dövlət başçısı 44 günlük müharibədə möhtəşəm Qələbəni də məhz xalqının dəstəyi ilə qazandı. Azərbaycanlılar öz Liderinə sevgi və böyük ehtiram hissi bəsləyirlər. Mən istər sosial şəbəkələrdə, istərsə də müxtəlif zümrələrdən olan Azərbaycan vətəndaşları ilə görüşlərdə buna əmin oldum. Prezident İlham Əliyev həm də olduqca səmimi insandır. Xatırlayıram, müharibə günlərində onun xalqa müraciətlərində düşmənə qarşı söylədiyi bir çox fikirlər sadə insanların leksikonuna daxil olmuşdu. Bizim zamanımızda öz xalqı tərəfindən bu qədər sevilən dövlət başçısı çox azdır. Prezident İlham Əliyevin yüksək intellekti, müxtəlif sahələrə dair dərin ensiklopedik bilikləri, özünün əsas ixtisası - diplomatiya sahəsində məharəti beynəlxalq siyasət aləmində ona böyük nüfuz qazandırıb. Ötən il onun bu məziyyətlərinə daha bir yüksək keyfiyyəti - böyük sərkərdəlik qabiliyyəti əlavə olundu. Təsadüfi deyil ki, Azərbaycan xalqı öz Prezidentini məhz Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı adlandırıb”.

Prezident İlham Əliyevin İslam və ərəb dünyalarında nüfuzundan danışan akademik vurğulayıb: ”Mərhum Heydər Əliyev dünyanın iki qlobal gücündən biri olan SSRİ-nin rəhbərlərindən biri kimi ərəb dünyasında böyük nüfuza malik idi. Onun davamçısı İlham Əliyev isə bizim coğrafiyada müsəlmanlara məxsus olan torpaqları qısa müddətdə işğaldan azad edən sərkərdə, İslam abidələrini və dini məbədləri qoruyan xilaskar olaraq tanınır. O, təkcə öz xalqının deyil, bütün müsəlmanların qürur və ləyaqətini, habelə özünə inam hissini möhkəmləndirdi. Son bir ildə ərəb mətbuatının xülasəsinə baxsanız, Prezident İlham Əliyevin böyük siyasətçi və sərkərdə məharəti haqqında çoxlu sayda məqalələrin şahidi ola bilərsiniz. Düşünürəm ki, Azərbaycanın dövlət başçısı həm öz xalqı, həm də İslam aləmi üçün nadir tarixi şəxsiyyətlərdən biridir. Prezident İlham Əliyev siyasət aləmində siyasətçilərə, hərb sənətində hərbçilərə, iqtisadiyyat üzrə ən yaxşı iqtisadçılara dərs keçə biləcək dərəcədə böyük istedada malikdir”.

M.Suda sonda deyib ki, siyasət, ilk növbədə, səbir və qətiyyət elmidir. Prezident İlham Əliyev bu iki mühüm keyfiyyətə malik siyasətçidir. Uzun illər - 30 ilə yaxın müddətdə öz xalqının erməni işğalından çəkdiyi əziyyətləri, məruz qaldığı qətliamlara son qoymaq üçün ona güclü dövlət, iqtisadi qüdrət, yüksək döyüş qabiliyyətinə malik olan ordu lazım idi və dövlət başçısı tədricən, addım-addım buna nail oldu. Təkcə Azərbaycanın deyil, bütün regionun rifahını və gələcəyini düşünən Prezident bu gün sülh və əməkdaşlıq istiqamətində yorulmaz fəaliyyətini davam etdirir.

”İordaniya və bütün ərəb ölkələrinin ziyalıları adından bu çətin və şərəfli yolda Prezident İlham Əliyevə uğurlar diləyirəm”, - deyə akademik bildirib.

# Leonid Kalaşnikov: “Prezident İlham Əliyev ölkənin ərazi bütövlüyü problemini həll edən şəxsiyyətdir”

**Azərbaycan Prezidenti İlham Əliyev - dahi atanın layiqli övladıdır. Mən Heydər Əliyevi məhz belə dəyərləndirirəm. Son vaxtlar tez-tez onun barəsində Sovet İttifaqını qoruyub saxlaya biləcək bir şəxs və ondan ehtiyatlandıqları üçün İttifaqın rəhbər orqanlardan kənarlaşdırılan insan kimi danışırlar.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri rusiyalı siyasətçi, Dövlət Dumasının deputatı, Dumanın Müstəqil Dövlətlər Birliyi məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə Komitəsinin sədri Leonid Kalaşnikov bildirib.



Deputat deyib: ”İlham Əliyev yenidənqurmadan sonrakı hərc-mərclik şəraitində heç də atasından geri qalmadı. Azərbaycana rəhbərliyi dövründə o, qonşu ölkələrlə, o cümlədən Rusiya və Türkiyə kimi böyük geosiyasi aktorlarla dostluq münasibətləri qurub, Azərbaycanın qarşılaşdığı çox mürəkkəb bir problemi - ərazi bütövlüyü problemini həll edib. Bunu yalnız görkəmli rəhbər edə bilər. Azərbaycan Prezidenti ilə bizim qarşılıqlı etimada əsaslanan çox yaxşı münasibətlərimiz var. Səmimi deyirəm, bu, istedadlı, zəkalı insandır. Çünki ərazi bütövlüyü problemini sadəcə sözlə və ya hərbi yolla həll etmək mümkün deyil. Bundan ötrü diplomatik təmkin, Rusiya ilə, digər qonşu ölkələrlə xoş, mükəmməl münasibətlər qurmaq və bununla yanaşı, öz dövlətinin imkanlarını artırmaq lazım idi”.

Rusiya Dövlət Dumasının komitə sədri qeyd edib ki, postsovet məkanında çoxları ruslar haqqında, rus dili haqqında danışır, lakin bundan ötrü heç bir addım atmır. L.Kalaşnikov deyib: ”Mən MDB işləri üzrə Komitənin sədri kimi bütün bunları görürəm. Azərbaycanda bir neçə yüz rusdilli məktəb mövcuddur. Azərbaycan Prezidenti və Birinci vitse-prezident bu ölkədə rus dilini səmimi dəstəkləyirlər. Mən Azərbaycanı keçmiş Sovet İttifaqının digər respublikaları ilə müqayisə edirəm, o respublikalar ki, dostluq və sədaqətə and içirlər, lakin orada bircə dənə belə rusdilli məktəb yoxdur, yaxud onların sayı çox azdır. Mən bu respublikada Rusiyaya, ruslara qarşı necə yanaşmanı görürəm. Bütün bunlar rəhbərlərdən qaynaqlanır. Prezident İlham Əliyev ölkənin çox mürəkkəb ərazi bütövlüyü problemini həll edən şəxsiyyətdir. Digər tərəfdən, o, həmişə özünə xas olan addımı atıb - Azərbaycanda yaşayan bütün millətləri dəstəkləyib. Mən Azərbaycanda pravoslav kilsəsinin rəhbərləri, hakimiyyətdən uzaq həmvətənlilərlə görüşmüşəm. Onların hamısı səmimi qəlbdən Prezident haqqında xoş sözlər deyirdilər”.

Rusiyalı siyasətçi sonda deyib: ”Prezidentin ad günündə cəsarətlə bu sözləri təsdiqləmək olar: hər bir azərbaycanlı deyə bilər ki, tale onların ölkəsinin üzünə gülüb. Azərbaycanın bəxti Heydər Əliyev ilə də, İlham Əliyevlə də gətirib. Bu, hansısa alın yazısıdır. Çünki 1990-cı illərdə respublika əllərində silah gəzərək özbaşınalıq edən anarxistlərin və quldurların əlində idi. İndi də ölkənin təməlini - milli rifahı və milli həmrəyliyi parçalamağa cəhd göstərən qüvvələr var. Bu gün Azərbaycan təkcə neft ölkəsi deyil. Orada turizm də inkişaf edir, Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Gözəl dağ kurortları var, bizim turistlərin mənə danışdıqları kimi, xizəkdə də sürüşmək mümkündür. Hər yerdə rus dilində çox gözəl danışırlar. Əlbəttə, Prezident bütün bunları zərrə-zərrə, hər gün edir. İlham Əliyev ən xoş sözlərə layiqdir və mən onu ad günü münasibətilə məmnuniyyətlə təbrik edirəm”.

# Almaniya qəzeti

## Azərbaycan tərəfindən 10 erməni hərbi qulluqçunun qarşı tərəfə qaytarılmasından yazıb

Almaniyanın ”Süddeutsche Zeitung” qəzetində ”Azərbaycan 10 erməni azad edir” sərlövhəli məqalə dərc olunub.




AZƏRTAC xəbər verir ki, məqalədə Aİ-nin vasitəçiliyi ilə Azərbaycan tərəfindən qonşu Ermənistana 10 hərbi qulluqçunun təhvil verildiyini bildirir. Qeyd olunur ki, Aİ Şurasının Prezidenti Şarlz Mişel özününü tvitter hesabında bunula əlaqədar paylaşım edib. O, Azərbaycanın bu addımını ”etimadı gücləndirmək istiqamətində qarşılıqlı iradəni nümayiş etdirən mühüm humanitar jest” kimi dəyərləndirib.

Məqalədə vurğulanır ki, həm Azərbaycan, həm də Ermənistan tərəfi 10 erməni hərbi qulluqçunun azad edildiyini təsdiqləyiblər. Diqqətə çatdırılır ki, bir neçə gün əvvəl Brüsseldə keçirilmiş birgə görüşdə Aİ tərəfindən Azərbaycan Prezidenti İlham Əliyevə və Ermənistanın baş naziri Nikol Paşinyana ”Dağlıq Qarabağ regionu ilə bağlı münaqişədə” dəstək, o cümlədən regionda minaların təmizlənməsində yardım vəd edilib. Yazıda, həmçinin vurğulanır ki, Brüsseldəki görüşdən əvvəl Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan həmişə Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə görüşüblər. Putin 2020-ci ildə keçmiş sovet respublikaları arasında baş vermiş müharibəyə son qoyan atəşkəs danışıqlarına vasitəçilik edib.

Azərbaycanın 10 erməni hərbi qulluqçunun azad etməsi ilə bağlı eyni məzmunlu xəbərlər Almaniyanın bir çox digər KİV-lərində də dərc olunub.

# Bakıda "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda konfrans keçirilib

**Dekabrın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin tərəfdaşlığı ilə "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda konfrans keçirilib.**



"Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin sədr müavini Rüfət Həmzəyevin moderatorluğu ilə keçirilən konfransda əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinə həsr edilmiş film nümayiş olunub.

Sonra konfransda çıxış edən YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, bu gün Azərbaycan dünyada nümunəvi inkişaf modelinə və örnək milli tərəqqi yoluna malik müstəqil ölkə kimi tanınır. Ölkəmizin tarixi nailiyyətlər qazanaraq dünyada söz və nüfuz sahibinə çevrilməsi milli maraqlara, dövrün tələblərinə və çağırışlarına əsaslanan daxili və xarici siyasətin həyata keçirilməsi sayəsində mümkün olub. Müstəqillik dövrünün sabitlik və inkişaf mərhələsi kimi səciyyələndirilən 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə görülən işlər milli-strateji hədəflərə çatmağa imkan verməklə yanaşı, yeni Azərbaycanın parlaq gələcəyini inşa etdi. Ulu Öndər, həmçinin siyasi varisliyi təmin etməklə Azərbaycanın müstəqil dövlətçilik ənənəsinin qorunmasına - ölkəmizin suveren dövlət kimi davamlı inkişafına müstəsna töhfələr verib. Bu gün Azərbaycanın inamlı, dinamik və dayanıqlı inkişafı, müstəqilliyini möhkəmləndirərək yeni strateji zirvələr fəth etməsi Heydər Əliyev siyasətini yeni müstəvidə davam etdirən dünya şöhrətli siyasətçi cənab İlham Əliyevin adı ilə bağlıdır. Ümumiyyətlə, Prezident İlham Əliyevin adı həm daxili, həm də beynəlxalq ictimai rəydə milli tərəqqi anlayışı ilə assosiasiya olunur. Ona görə ki, cənab İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi son 18 ildə Azərbaycan misilsiz tərəqqiyə nail olub, nümunəvi iqtisadi inkişaf modeli ilə dünyanın diqqətini özünə cəlb edə bilib. Heç də təsadüfi deyil ki, dünyanın nüfuzlu ekspertləri və mötəbər strateji tədqiqat mərkəzləri, aparıcı reytinq institutları Azərbaycanın inkişaf modelini mütərəqqi nümunə kimi səciyyələndirir və ölkəmizin gələcəyinə dair pozitiv rəy, nikbin proqnoz ifadə edirlər.







Prezident İlham Əliyevin uğurlu fəaliyyətinin dövlətçilik ənənələrinin qorunmasını, tarixi dəyərlərlə müasir çağırışların uzlaşdırılmasını təmin etməklə dövlət müstəqilliyimizin möhkəmləndirilməsinə xidmət göstərdiyini bildirən YAP Sədrinin müavini qeyd edib: "Azərbaycan cənab İlham Əliyevin liderliyi ilə sabitlik adasına, təhlükəsizlik məkanına, inkişaf diyarına çevrilib. Ölkəmizdə sabitliyin təminatçısı xalq-iqtidar birliyi, Liderin xalqın maraqlarına, rifahına və mənafeyinə əsaslanan siyasəti, xalqın isə öz Liderinə qətiyyətli inamıdır. Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsini təmin edən mühüm faktorlardan biri inkişafın milli modelinin - yeni iqtisadi möcüzənin yaradılmasıdır. Son 18 ilin göstəriciləri makroiqtisadi sabitliyə nail olan Azərbaycanın innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan əsas hədəfləri uğurla reallaşdırdığını təsdiqləyir. Mərkəzində Azərbaycan vətəndaşının rifah və mənafeyinin dayandığı nümunəvi sosial siyasətin həyata keçirilməsi - vətəndaş məmnunluğunun artırılması, regionların sosial-iqtisadi inkişaf konsepsiyasının uğurla reallaşdırılması və digər mühüm faktorlar ölkənin etibarlı və dayanıqlı yüksəlişinə əlavə təkan olub.

Digər tərəfdən, Prezident İlham Əliyevin müstəqil və milli maraqlara əsaslanan xarici siyasəti Azərbaycanın regional liderə - bölgədə güc mərkəzinə, dünya siyasətində qüdrətli və nüfuzlu milli subyektə çevrilməsinə səbəb olub. Azərbaycanın təşəbbüsü və liderliyi ilə mühüm nəqliyyat və enerji layihələrinin reallaşdırılması, ikitərəfli və çoxşaxəli formatda əməkdaşlıq platformalarının yaradılması ölkəmizə mühüm iqtisadi mənfəət və siyasi dividendlər qazandırıb. Respublikamızın beynəlxalq təşkilatlarda uğurlu fəaliyyəti Azərbaycana, şəxsən cənab İlham Əliyevə olan böyük inam və etimadın ifadəsi, dövlətimizin geostrateji prestijinin göstəricisidir.

Heç şübhəsiz, xalqımızın çoxəsrlik, zəngin və şərəfli dövlətçilik tarixinin zirvə hadisəsi - ən parlaq səhifəsi Azərbaycanın ərazi bütövlüyünün, tarixi ədalətin bərpasına nail olunmasıdır. Bu, müstəsna siyasi hadisə və dövlətçilik tariximizdə bənzəri olmayan Zəfər salnaməsi - Qələbə dastanıdır, həmçinin Heydər Əliyev ideyalarının təntənəsi, Prezident İlham Əliyevin böyük siyasətinin real nəticəsidir. Ümumiyyətlə, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsi müstəqillik illərində həyata keçirilən uğurlu, rasional, milli maraqlara əsaslanan və müasir qlobal çağırışlara cavab verən strateji kursun məntiqi nəticəsidir. Azərbaycanın hərbi gücünün, iqtisadi potensialının, qlobal arenada siyasi nüfuzunun və çəkisinin artması - beynəlxalq mövqeyinin möhkəmlənməsi, milli həmrəyliyin, xalq-Lider birliyinin təmin olunması ərazi bütövlüyümüzün bərpasında, tarixi qələbənin qazanılmasında həlledici amil olub".

Vurğulanıb ki, dünyanın hərb və siyasət tarixində xüsusi yer tutan, xalqımızın şanlı qəhrəmanlıq dastanı və Zəfər simvoluna çevrilən Vətən müharibəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün və tarixi ədalətin bərpasını deyil, eyni zamanda, həm Cənubi Qafqaz regionunda, həm də Avrasiyada yeni geostrateji reallıqların təşəkkülünə səbəb olub. Ölkəmiz tərəfindən irəli sürülən təşəbbüslər regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfə olmaqla yanaşı, Azərbaycanın qlobal arenada mövqeyinin daha da möhkəmlənməsini təmin edir. Xüsusilə də Zəngəzur dəhlizinin açılması, kommunikasiya xətlərinin bərpası geniş formatda əməkdaşlıq imkanlarının formalaşması, Cənubi Qafqazın işbirliyi məkanına çevrilməsi deməkdir. Eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə sistemli quruculuq işlərinin aparılması, tarixi, dini və mədəni abidələrimizin bərpası regional inkişafın əhatə dairəsinin genişlənməsinə səbəb olmaqla yanaşı, milli tərəqqinin yeni mərhələsinə transformasiya deməkdir.

Danılmaz faktdır ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli, ali dəyərlərə, milli maraqlara əsaslanan fəaliyyəti də Azərbaycanın tərəqqisinə, qarşıda duran strateji hədəflərə çatmağa əhəmiyyətli töhfədir.

*Ardı Səh. 6*

# Bakıda “Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah” mövzusunda konfrans keçirilib

Əvvəli Səh. 5




Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri əsasında reallaşdırılan layihələr Azərbaycan dövlətinin milli gücünün artmasında, müxtəlif sahələrdə davamlı uğurlar qazanılmasında, ən əsası, müstəqilliyimizin möhkəmləndirilməsində mühüm rola malikdir.

”Göründüyü kimi, müstəqil Azərbaycan Böyük Yolun - Heydər Əliyev yolunun Müzəffər davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə strateji hədəflərinə doğru addım-addım irəliləyir. Müstəqillik prinsipinə əsaslanan və milli maraqların qorunması məqsədinə xidmət edən siyasətin ardıcıl və sistemli şəkildə davam etdirilməsi Azərbaycanın qarşısında yeni perspektivlərin açılması deməkdir.

Fürsətdən istifadə edərək, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Sizləri təbrik edir, Azərbaycan Respublikasının Prezidenti, Partiyamızın Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə yeni zirvələrə doğru bu şərəfli yolda hər birinizə uğurlar arzu edirəm!”, -deyə Tahir Budaqov qeyd edib.

Sonra Azərbaycan Respublikası Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli ”Azərbaycanda dövlət quruculuğu” mövzusunda çıxış edib.

Prezident kimi xalqın inamını qazanmış cənab İlham Əliyevin böyük tarixi şəxsiyyət olduğunu deyən Ə.Hüseynli bildirib: ”Zamanında bir sıra dövlətlərdə konstitusion idarəetmə quruluşunu dəyişməklə hakimiyyətdə qalma üslubundan fərqli olaraq Prezident İlham Əliyev ancaq açıq və birbaşa seçkilərdə dəfələrlə qalib gəlmiş dövlət başçısıdır. O, müasir hüquqi və demokratik dünyada 20 ilə yaxın dövrdə sabit, davamlı və artan reytinqi qoruyub saxlayan çox az sayda tarixi şəxsiyyətlərdən biridir. 2018-ci ilin prezident seçkilərindən sonra başlayan islahatların yeni mərhələsindən və Vətən müharibəsi dönəmindən Prezident İlham Əliyev daha publik dövlət başçısı obrazındadır. Xalq tərəfindən seçilən hər bir rəhbərin həyatda xüsusi təyinatı olur. Amma bu missiyanı həyata keçirmək hər kəsə nəsib olmur. İlham Əliyevin Azərbaycan dövlətçiliyində ərazi bütövlüyümüzü təmin etmək kimi xüsusi təyinatı onun özünün, əslində, hərbi mənada xüsusi təyinatlı kimi yüksək hazırlığının nəticəsi idi. Zaman keçdikcə ictimaiyyətimiz Vətən müharibəsinin gedişinin və uğurunun bütün detallarının hərbitaktiki müəllifinin məhz Ali Baş Komandanın olduğunu görməkdədir. Beləliklə, Prezident kimi dövlət və xalq qarşısında xüsusi təyinatını icra etmiş İlham Əliyev həm də bölgənin ən güclü xüsusi təyinatlıları olan ordunun Ali Baş Komandanıdır”.

Milli Məclis sədrinin müavini qeyd edib ki, indi Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə bağlı tarixi hadisə postsovet məkanında yeganə və bəlkə də sonuncu hadisə olacaq. İlham Əliyevin bu təcrübəsini indi çoxları öyrənir, amma tətbiq edə biləcəkləri böyük sual altındadır. Çünki Prezident İlham Əliyev heç kimin edə bilmədiyini etdi, əsrlər boyu ilk dəfə olaraq qonşuluğumuzdakı böyük dövlətlərin maraqlarını Azərbaycanda birləşdirə bildi. Bundan sonra Qarabağı azad edib bu bölgəni maraqlar uğrunda çəkişmədən xalqların rifahı və birgə inkişafı mərkəzinə çevirdi. Məhz buna görə də Prezident İlham Əliyevin ”Qarabağ Azərbaycandır və nida” ifadəsi sonra bir sıra dövlət başçıları tərəfindən tarixdə ilk dəfə olaraq ”Dağlıq Qarabağ və ətraf rayonlar Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir” ifadəsi ilə yekunlaşmış oldu. Əslində, böyük tarixi şəxsiyyətlərin həyatında bir oxşarlıq mövcuddur. Keçən əsrin 80-ci illərində Heydər Əliyev SSRİ kimi nəhəng dövlətin rəhbərliyində təmsil olunarkən yaşının məhz bu çağlarında idi. O zaman bir çox dünya mətbuatı Heydər Əliyevin ilk müsəlman və türk şəxsin bu zirvəyə yüksəldiyini yazırdılar. Bu gün isə müasir dünyəvi türk və müsəlman aləminin ən parlaq şəxsiyyəti İlham Əliyevdir.





Konfransda ”Azərbaycanın iqtisadi inkişaf modeli” mövzusunda çıxış edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı dövlətimizin başçısı İlham Əliyevin prezidentliyi dövründə iqtisadiyyatın mərhələli inkişafından geniş bəhs edib. Onun sözlərinə görə, 2003-2014-cü illərdə ölkə iqtisadiyyatı 3 dəfə böyüyüb, eləcə də əhalinin sosial rifahının yüksəlməsi, regionların sosial-iqtisadi inkişafı və infrastruktur quruculuğu istiqamətində mühüm işlər görülüb. Həmçinin 2015-2020-ci illərdə də inkişaf istiqamətində uğurlu siyasət davam etdirilib.



Bildirilib ki, 2016-cı ildə Prezident İlham Əliyev tərəfindən təsdiq olunmuş Strateji Yol xəritələrinin uğurla icra olunması sosial-iqtisadi gücümüzü daha da artırır. Artıq Azərbaycan Avrasiya məkanında önəmli rola malik dövlətə çevrilib. Bütün bunlara ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasətin Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsində nail olmuşuq.

2021-2025-ci illər üzrə hədəflərdən danışan V.Qasımlı burada postpandemiya, postkonflikt və ”yaşıl iqtisadiyyat” üzrə nəzərdə tutulan tədbirlər barədə fikirlərini bölüşüb. Onun sözlərinə görə, Azərbaycanın azad olunmuş torpaqları ərazisinə görə dünyanın 35 ölkəsindən böyükdür. Azərbaycan iqtisadiyyatı Qələbədən sonra kəmiyyət və keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Azad olunmuş ərazilər Azərbaycan iqtisadiyyatına yeni nəfəs gətirir. Bu ərazilərə investisiyanın cəlb edilməsi üçün dəstək proqramları həyata keçiriləcək. Azərbaycan bütün reytinqlərdə şərhsiz regional liderdir.

Müdafiə sənayesindən istifadənin iqtisadiyyatı hərəkətə gətirdiyini qeyd edən V.Qasımlı deyib: ”Azərbaycanın müdafiə sənayesi məhsulları 30-dan çox ölkəyə ixrac olunur. Bu da o deməkdir ki, müdafiə sənayesi məhsulları təkcə daxili tələbatı deyil, eyni zamanda, xarici ölkələrin də tələbatını ödəməyə yönəldilir”.

İcraçı direktor, həmçinin dövlətin vergi siyasətinin əhəmiyyətindən bəhs edib.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov isə ”Azərbaycan diplomatiyasının uğuru” mövzusunda çıxış edib. Azərbaycan dövlətinin balanslaşdırılmış xarici siyasət həyata keçirdiyini vurğulayan S.Seyidov qeyd edib: ”Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində güclü və nüfuzlu dövlət kimi tanınır. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında isə uğurla, uzaqgörənliklə reallaşdırılan praqmatik daxili və xarici siyasət kursu dayanır. Azərbaycan bu gün nəinki bölgə çərçivəsində, artıq dünya miqyasında etibarlı tərəfdaş, müstəqil, ləyaqətli ölkə kimi tanınır. Cənubi Qafqaz geosiyasi məkanında lider dövlət kimi çıxış edən ölkəmiz özünün çoxvektorlu və balanslaşdırılmış xarici siyasət strategiyası ilə həm ikitərəfli münasibətlər kontekstində, həm də çoxşaxəli əlaqələr fonunda yerləşdiyi regionun inkişafına mühüm töhfələr verir. Azərbaycanın fəal xarici siyasəti, həmçinin davamlı inkişafı onu siyasi, iqtisadi və mədəni cəhətdən qlobal mərkəzlərdən birinə çevirməkdədir. Xüsusilə də regionun siyasi, iqtisadi və humanitar mərkəzi kimi çıxış edən ölkəmiz sivilizasiyalararası dialoqun inkişafına əhəmiyyətli töhfələr verməklə yanaşı, mühüm siyasi, iqtisadi, mədəni və humanitar xarakterli beynəlxalq tədbirlərə ev sahibliyi edir. Qazanılan uğurların əsasında isə Prezident İlham Əliyevin siyasəti dayanır”.

S.Seyidovun fikrincə, əldə edilən uğurların kulminasiyası İkinci Qarabağ müharibəsindəki parlaq Zəfər oldu. ”Azərbaycan diplomatiyasının bu Zəfərin qazanılmasında yeri və rolu çox böyükdür. Çünki ötən illər ərzində ölkəmiz bu istiqamətdə çox fəal diplomatiya həyata keçirdi. Bunun nəticəsində beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün tanınması ilə bağlı sənədlər qəbul etdilər. Bu sənədlər öz ərazi bütövlüyümüzün bərpa olunmasında hüquqi baza rolunu oynadı. Xüsusilə qeyd etmək istəyirəm ki, Prezident İlham Əliyevin şəxsiyyətinə sonsuz inam bizim böyük qələbəmizin mühüm amillərindəndir. İlham Əliyev fenomeni bundan sonra da Azərbaycan dövlətinə böyük uğurlar gətirəcək”, -deyə o bildirib.

Daha sonra ”Azərbaycanın yeni mədəniyyət strategiyası” mövzusunda çıxış edən Azərbaycan Respublikasının mədəniyyət naziri Anar Kərimov deyib ki, müstəqil ölkəmizin inkişafının əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkəmizdə yeni mədəniyyət strategiyasının həyata keçirildiyini diqqətə çatdıran nadir deyib: ”Qarabağ Zəfərimizi möhkəmləndirən amillərdən biri də mədəniyyətimizdir. Mədəniyyətimizi inkişaf etdirməklə vətəndaş cəmiyyətində onun rolunu artırmalıyıq. Yeni reallıqlara uyğunlaşmaq üçün insan kapitalının yeni çağırışlara cavab verməsi, hüquqi bazanın möhkəmləndirilməsi lazımdır.

*Ardı Səh. 7*

# Bakıda "Azərbaycanın inkişaf modeli: Dünən, bu gün və sabah" mövzusunda konfrans keçirilib

Əvvəli Səh. 6

Mədəniyyətin davamlılığını qorumaq bizim ümdə vəzifəmizdir. Bu vəzifəni biz artıq Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsləri ilə həyata keçirməkdəyik. Mədəniyyətin iqtisadi inkişafa töhfəsi gücləndirilməlidir. Bu da bizim yeni missiyalarımızdan biridir".



Nazir qeyd edib ki, biz əcdadlarımızın irsini qorumaqla kifayətlənməməliyik, eyni zamanda, yeni yaradıcılıq nümunələri də yaratmalıyıq. O bildirib ki, bu çərçivədə də yeni istiqamətlər də müəyyən edilib. "2030-cu il üçün milli prioritetlər siyahısında mədəni və yaradıcı sənayelərin inkişafı da yer alır, dayanıqlı iqtisadiyyatın inkişafı bölməsində bu da qeyd olunub. Vətən müharibəsindən sonra Qarabağın azad edilməsi və bu ərazilərimizə mədəni irsin qaytarılması missiyası da davam etdirilir. Şuşanın mədəniyyət paytaxtı elan edilməsi çox önəmli mesaj idi. Bu, Azərbaycanın azad edilmiş ərazilərinə öz mədəniyyəti ilə qayıdışı idi. Azərbaycan Qarabağa təkcə iqtisadi, enerji layihələri ilə deyil, eyni zamanda, "yumşaq güc"lə qayıdır. Biz bu ərazilərə sülh çağırışları ilə qayıdırıq", - deyə nazir əlavə edib.



A.Kərimovun fikrincə, mədəniyyətin əlçatan olması üçün rəqəmsallaşdırma prosesi sürətləndirilməlidir. Maliyyənin effektiv idarə olunması, özəl sektorun mədəni layihələrə cəlb edilməsi fəaliyyətimizin əsas hissəsidir. Fəaliyyətimizi daha çox layihələr əsasında qurmaq da bizim hədəflərimizdən biridir. Yeni çağırışlara uyğun olaraq nazirlikdə yeni şöbələrin yaradılması prosesi də gedəcək. Bununla əlaqədar artıq iki yeni şöbə yaradılıb. Prioritetlərimizdən biri də Azərbaycan mədəniyyətinin xaricdə təbliğ edilməsidir. Bütövlükdə, yeni strategiya mədəniyyət sahəsinə yeni baxışdır.



Konfransda Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov "Azərbaycanın enerji təhlükəsizliyi" mövzusunda çıxış edib.

Ölkəmizin uğurlu enerji siyasəti həyata keçirsiyini bildirən nazir qeyd edib: "Xəzər dənizində yeni karbohidrogen mənbələrinin aşkar edilməsi, onun istismarı və resursların Avropadakı istehlakçılara çatdırılması əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi siyasətin təntənəsidir. Həmin siyasətin praktik olaraq həyata keçirilməsi Prezident İlham Əliyevin siyasi iradəsinin nəticəsi kimi qəbul edilir".

Onun sözlərinə görə, Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" (AÇG) neft-qaz yataqları blokundan indiyədək 545 mln ton neft hasil edilib. "AÇG-dən indiyədək əldə olunan gəlirlər 155 mlrd. dollar təşkil edib. Bu ilin yanvar-noyabr aylarında Azərbaycan Trans-Anadolu və Trans-Adriatik qaz kəmərləri vasitəsi ilə Türkiyə və Avropaya 12,4 mlrd. kubmetrdən çox qaz nəql edib. Hesabat dövründə Avropaya 7,3 mlrd. kubmetr qaz tədarük edilib", - deyə P.Şahbazov qeyd edib.

Nazir onu da vurğulayıb ki, Avropaya qaz ixracının artırılması üçün böyük potensial var və ehtiyac duyulsa, tədarük həcmləri və coğrafiyası genişləndirilə bilər. 2024-cü ildə Azərbaycanda qaz hasilatı 50 mlrd. kubmetrə çatacaq. Son zamanlar dünya birjalarında təbii qazın qiymətindəki artımlar zamanı Avropa və dünyadakı tərəfdaşların Azərbaycanın fürsətcil partnyor olmadığına şahidlik etdilər. P.Şahbazov deyib ki, bərpaolunan enerji layihələrinin gələn il hərraca çıxarılması və Xəzər dənizinin külək potensialından istifadə ilə bağlı planlarımız "yaşıl enerji"nin təmin olunması üçün fürsətdir. Nazir, həmçinin qeyd edib: "Hazırda ölkədə "yaşıl enerji" sahəsinin inkişafı sahəsində böyük işlər aparılır və bununla bağlı geniş planlar mövcuddur. Azad olunmuş ərazilərdə də xarici investisiya hesabına bərpa olunan enerji ilə bağlı layihələrin həyata keçirilməsi əsas hədəfdir. Hazırlanmış "yaşıl enerji" konsepsiyasına əsasən, xarici investisiya qoyuluşu ilə Kəlbəcər və Laçında 100 meqavat gücündə külək elektrik stansiyasının tikilməsi planlaşdırılır. Azərbaycanın enerji kursu qlobal çağırışlara uyğun şəkildə həyata keçirilir. Hədəfimiz ölkəmizin ümumi enerji istehsalında bərpa olunan enerji payını hazırkı 17 faizdən 2025-ci ildə 24 faizə, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır. Bu məqsədlə 1500 MVt-lıq istehsal gücünün yaradılması nəzərdə tutulub".

Konfransda Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov "Azərbaycanın inkişaf modeli və davamlı inkişaf" mövzusunda çıxış edib.

U.Ələkbərov bildirib ki, Azərbaycanın inkişaf modeli dünya üçün nümunədir. Onun sözlərinə görə, inkişaf modelinin təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulub. Natiq Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başladığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bütün bu işlərin reallaşmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da xüsusi rolu var. U.Ələkbərov ötən dövr ərzində Azərbaycanın əldə etdiyi nailiyyətlər, dünya ölkələri arasında tutduğu yer barədə məlumatları slaydlar vasitəsilə konfrans iştirakçılarının diqqətinə çatdırıb.

Onun fikrincə, innovativ texnologiyaların işlənilməsi və tətbiqi yalnız istehsal və xidmət sahələrini deyil, eyni zamanda, olduqca böyük əhəmiyyət daşıyan planlaşdırma və idarətmə proseslərini də əhatə edir. Bütün bunların əsasında Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyası, bu istiqamətdə qəbul edilən və həyata keçirilən qərarlar durur. Uzunmüddətli davamlı inkişaf strategiyasının tələblərinə cavab verən insan potensialının formalaşması, ölkənin zəngin təbii ehtiyatlarından olan "qara qızılın" insan kapitalına çevrilməsi, uğurlu tərəqqinin tükənməz mənbəyi olan bu sərvətin formalaşdırılması və səfərbər edilməsi yüksək hədəflərə nail olunmasının əsas amili kimi çıxış edir. "İnnovativ tərəqqinin əsasını təşkil edən insan potensialının inkişafını təmin edən və bu prosesin uğurlu olmasını dünyada qəbul olunmuş standartlara görə, beynəlxalq təşkilatlar üç ən əhəmiyyətli göstəricilərin təhlili əsasında qiymətləndirirlər. BMT, Dünya Bankı, digər beynəlxalq təşkilatlar, nüfuzlu elmi-analitik mərkəzlər bu göstəricilərə, ilk növbədə, əhalinin sağlam və bilikli olmasını aid edirlər və bu iki amili uğurlu inkişafın əsas şərtləri kimi dəyərləndirirlər. Hesab edilir ki, yalnız bu iki istiqamətdə nailiyyətlərə malik olunduğu halda hər hansı bir ölkənin əhalisi üçüncü amil olan uğurlu və davamlı iqtisadi tərəqqiyə və bunların nəticəsi kimi həyat səviyyəsinin yüksək olmasına, sosial problemlərin layiqli səviyyədə həllinə nail ola bilərlər. Azərbaycanda bu siyasətin ardıcıl və məqsədyönlü həyata keçirilməsinin müsbət nəticələri göz qabağındadır", - deyə rektor vurğulayıb.



Konfransda "Azərbaycanda innovativ inkişaf və əqli mülkiyyət" hüquqları mövzusunda çıxış edən Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanov qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə innovativ inkişafa xidmət edən institusional islahatlar həyata keçirilir. O bildirib: "Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi, müasir dünya sivilizasiyasının tərəqqisində insan kapitalı və intellekt yeni keyfiyyət amili kimi həlledici əhəmiyyət daşıyır. Hər bir dövləti rifah və yüksəlişə aparan yol elm və innovasiyalara əsaslanan inkişafdan keçir. Dövlətimizin başçısının göstərişlərindən irəli gələn çevik, daha yığcam və daha məqsədyönlü struktur vasitəsilə sahələrin idarə edilməsi, şəffaflığın, səmərəliyin və cavabdehliyin təmin olunması məqsədilə Əqli Mülkiyyət Agentliyinin yaradılması və bu modeli reallaşdıran publik hüquqi şəxs institutu öz töhfələrini verməkdədir. Dövlət-inzibati funksiyaları yerinə yetirən publik hüquqi şəxs, eyni zamanda, fəaliyyətlərindən əldə olunmuş vəsaitlər hesabına saxlanma və digər xərclərinin optimallaşdırılmış üsullarla idarə olunmasına malikdir. Dövlət büdcəsindən yalnız Əqli Mülkiyyət Agentliyinin dövlət qulluqçularına bərabər tutulan işçilərinin əməkhaqları maliyyələşdirilir. Agentliyin saxlanma xərcləri və tabeliyində olan iki mərkəzin bütövlükdə fəaliyyəti özünümaliyyələşdirmə prinsipi əsasında həyata keçirilir. Bu isə institusional islahatın effektivliyinin təsdiqidir. Məhz buna görə əqli mülkiyyət sisteminin qarşısında duran vəzifələr ölkənin innovasiya siyasəti ilə müəyyən edilir və ölkədə həyata keçirilən iqtisadi islahatlara xidmət edir. Ən mühümü odur ki, Prezident İlham Əliyevin əqli mülkiyyət sahəsində apardığı konseptual və institusional islahatlar əqli mülkiyyətin yeniləşən mahiyyətinə uyğundur və sistemli xarakter daşıyaraq, ölkənin iqtisadi islahatlarına qulluq edir".



Daha sonra konfransda "Böyük yolun Müzəffər davamçısı" kitabının təqdimatı olub.

Kitabın müəllifi, "Yeni Azərbaycan" qəzetinin şöbə redaktoru Nurlan Qələndərli nəşrin Prezident İlham Əliyevin 60 illik yubileyinə həsr olunduğunu bildirərək deyib: "Xalqımızın ümummilli lideri, müdrik dövlət xadimi Heydər Əliyevin və Prezident, Müzəffər Ali Baş Komandan, dünya şöhrətli siyasətçi İlham Əliyevin fəaliyyəti, zəngin dövlətçilik irsi indiyə qədər müxtəlif tədqiqatların predmeti olub, çoxsaylı elmi-politoloji əsərlər, analitik və araşdırma materialları ərsəyə gətirilib. Təbii ki, bu əsərlərin hər biri qiymətlidir, dəyərli və mötəbər mənbədir. Yeni Azərbaycan Partiyasının dəstəyi əsasında hazırlanmış "Böyük yolun Müzəffər davamçısı" adlı kitab da həm Heydər Əliyev ideyalarının - Ümummilli Liderimizin zəngin dövlətçilik irsinin öyrənilməsi, həm də Prezident İlham Əliyevin fəaliyyətinin müxtəlif istiqamətlərinin tarixi faktlar, bugünkü reallıqlar, müasir çağırışlar, perspektivlər və gələcək hədəflər baxımından tədqiqi üçün etibarlı və zəngin mənbədir. Kitabın strukturu, mövzuların və məsələlərin məzmunu, əhatə dairəsi nəşrin məsləhətçisi və ön söz müəllifi kimi Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla birlikdə müəyyənləşdirilərək, işlənib hazırlanıb. Kitab ayrı-ayrı istiqamətlər üzrə 60 bölmədən, yəni 60 ayrıca mövzudan ibarətdir. Bununla yanaşı, dünyanın nüfuzlu şəxsiyyətlərinin dövlət və hökumət başçılarının, tanınmış ictimai, siyasi və mədəniyyət xadimlərinin Prezident İlham Əliyev haqqında fikirlərinə yer verilmiş, 60 sitat diqqətə çatdırılmışdır. Eyni zamanda, 2003-cü ildən bəri həyata keçirilən siyasətin nəticələrini və Azərbaycanın qazandığı sosial-iqtisadi uğurları əks etdirən 60 statistik göstəriciyə nəzər salınmışdır. Həmçinin dövlət başçısının müxtəlif məsələlərlə əlaqədar fikirləri də kitabda öz əksini tapmışdır. Vətən müharibəsində möhtəşəm tarixi Qələbənin qazanılması, Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan və qalib Sərkərdə kimi işğaldan azad olunmuş ərazilərə tarixi səfərləri, postmüharibə dövründə Azərbaycanın yeni geostrateji reallıqlar yaratması, milli yaddaşın bərpası istiqamətində müvafiq işlərin görülməsi kimi məsələlərə xüsusi nəzər salınmış, analitik qənaətlər ifadə edilmişdir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın milli maraqlara və bəşəri dəyərlərə əsaslanan, Azərbaycanın inkişafına və qarşıda duran milli-strateji hədəflərə çatmağa xidmət edən fəaliyyətindən də geniş bəhs olunub. Bütövlükdə, "Böyük yolun Müzəffər davamçısı" adlı kitab özündə tarixi faktları, müasir reallıqlara, siyasi, iqtisadi, ictimai-sosial, mədəni-humanitar məsələlərə analitik yanaşmanı əks etdirən mənbə kimi oxucular, tədqiqatçılar üçün faydalı ola, yeni ideyaların ortaya çıxmasına, fundamental elmi-siyasi əsərlərin ərsəyə gəlməsinə töhfə verə bilər".



Tədbirə yekun vuran YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov konfransda geniş, əhatəli məruzələrin dinlənildiyini bildirib. O qeyd edib ki, ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi böyük yolun Prezident İlham Əliyevin davam etdirməsi nəticəsində Azərbaycan bundan sonra da möhtəşəm zəfərlərə imza atacaq: "İnanırıq ki, cənab İlham Əliyev bu böyük yolun müzəffər davamçısı kimi Azərbaycanı dünyanın ən inkişaf etmiş ölkəsinə çevirməyə nail olacaq!".

# Yeni il insanlara neçəyə başa gələcək?

ARAŞDIRMA

**Həm xoşbəxtlik, həm də təlaşkənlik dövründəyik, çünki bayram gəlir. Bayram birlik, sevdiklərimizlə bir araya gəlmək deməkdir. Bəlkə bayram süfrələrində ailənizi qonaq etmək üçün hansı xörəkləri bişirəcəyiniz, bəlkə də bayramda nə vaxt uşaqlarınızı paltar alverinə çıxaracağınızı düşünməyə başlamısınız... Qarşıda bizi Yeni İl bayramı gözləyir və alış-veriş artıq başlayıb. Bu prosesdə qənaət etmək istəyirsinizsə bu yazı sizin üçündür. Qənaətcil alış-veriş üçün məsləhətlər:**



## Qida alış-verişinə qənaət etmək üçün məsləhətlər

Təbii ki, bayramların olmazsa olmazı bayram süfrələridir. Bayramı qeyd etmək üçün qapınızı döyən və ya evinizə qonaq gələn uşaqlara şirniyyat verməmək mümkün deyil. Bu səbəbdən şokolad və şirniyyatlar da hər bayram ərzaq alış-veriş siyahısına daxil edilir. Şokolad və konfet qiymətlərinin çox baha olduğunu düşünürsünüzsə və qənaət etmək istəyirsinizsə, kiçik muffin qəliblərində dadlı muffinlər hazırlayıb uşaqlara təqdim edə bilərsiniz.

Bayram günlərində endirimləri izləmək yaxşı fikirdir. Bayramla əlaqədar bəzi marketlərdə olan endirimlər sayəsində ehtiyaclarınızı daha sərfəli qiymətə əldə edə bilərsiniz.



Bəli, "az əvəzinə çox olsun" düşündüyünüzü bilirik və buna görə də bütün yeməkləri çox bişirirsiniz. Ancaq unutmamalısınız ki, bu yanaşma sizi qənaət etməkdən yayındırır. Ehtiyacınız olduğu qədər bazarlıq etmək və lazım olan qədər yemək hazırlamaqla həm büdcənizi qoruya, həm də qida israfının qarşısını ala bilərsiniz.

Bayramqabağı alış-veriş zamanı bayram menyunuzu evdəki yeməklərə uyğunlaşdıraraq daha az pul xərcləmək mümkündür. Məsələn, bayram dondurucuya qoyduğunuz xəmirləri və tərəvəzləri çıxarmaq üçün mükəmməl vaxtdır.

"1 alana 1 pulsuz", 3 ödə 2 və ya 50% endirimlə məhsul alsanız, qənaət etmiş olarsınız.

Bayram yeməkləri üçün ilkin hazırlıq görmək istəyirsinizsə, bayramdan əvvəl dondurulmuş və ya konservləşdirilmiş məhsulları saxlaya bilərsiniz. Bu sayədə bayram günlərində büdcənizi yormazsınız.

Ət xörəklərinizi paxlalılarla çoxalda, salat və qəlyanaltı hazırlayarkən paxlalardan istifadə edə bilərsiniz. Paxlalılar dadlı, qida dəyəri çox və ucuzdur. Yemək üçün alış-veriş edərkən ailəniz üçün qəşəng təqdimatlar hazırlamağınıza kömək edəcək qablar və süfrələr ala bilərsiniz.




## Geyim alış-verişinə qənaət etmək üçün məsləhətlər

Gəlin etiraf edək ki, bayramda təzə paltar geyinmək yaşımızdan asılı olmayaraq bizi sevindirən bir şeydir. Bəs, bayram qabağı geyimləri alarkən qənaətlə alış-veriş etmək olarmı?

E-ticarət saytlarında kampaniyalar qənaət etməyə kömək edə bilər. Bununla belə, bu satınalmalarda təxmini məhsulun çatdırılma tarixini və məhsulun ölçüsünün böyük və ya kiçik olma ehtimalını da nəzərə almalısınız. Beləliklə, alış-verişi son günə qoyursanız, bayram günündə geyinməyə heç nə tapa bilməyəcəksiniz.

Əgər "Mən geyimi görmədən və sınamadan almıram" deyənlərdənsinizsə outlet mağazalarında endirimli məhsullar da var. Təbii ki, peyvənd geniş yayılsa da, COVID-19-a görə ehtiyat tədbirlərinin görülməsi faydalıdır. Məhz bu səbəbdən alış-veriş sıxlığının artacağı bayram öncəsi dövrü gözləmədən alış-veriş etmək sağlam ola bilər.



## Təmizlik alış-verişinə qənaət etmək üçün məsləhətlər

"Bayram" deyildikdə ağıla gələn şeylərdən biri də təbii ki, bayram təmizliyidir. Bu bir həqiqətdir ki, təmizlik məhsullarına da müəyyən büdcə ayrılmalıdır. Beləliklə, təmizlik alış-verişinə necə qənaət etmək olar?

Fərqli sahələrdə istifadəyə uyğun çoxməqsədli məhsullar çox təmizlik məhsulları almanıza mane olur, beləliklə, qənaət edə bilərsiniz. İlk növbədə hansı məhsulu ala biləcəyinizi araşdırmaq daha yaxşıdır.

Müxtəlif bazarlardan və ya hətta internetdən qiymət araşdırması aparmaq sizə ən sərfəli variantı tapmağa kömək edə bilər.



Təmizliyə başlamazdan əvvəl ilk öncə dağınıqlığı təmizləyin. Bu yolla həm işinizi asanlaşdırmış, həm də vaxtınıza qənaət etmiş olarsınız. Təmizliyə başlamazdan əvvəl, mebelin arxasındakı tozu təmizləyin və çəkmələrin təmizlənməsini tamamlayın.

Təmizlədikdən sonra bu tip işlərin görülməsi təkrar-təkrar təmizlənməyinizə səbəb olacaq. Divarları yenidən rənglənmək əvəzinə, onları sabunlu su ilə silməyə cəhd edə bilərsiniz.

Təmizliyi bir gündə bitirməyə çalışmayın. Bu, tələsməyinizə və düzgün təmizləyə bilməməyinizə səbəb olur. Qarşıdakı günlərdə bir daha təmizləməmək üçün bayram təmizliyini bir neçə günə bölə bilərsiniz.

## Təamlar və hədiyyələr

Bayram günlərində ləzzətli təamlar təqdim etmək, uşaqları hədiyyələrlə sevindirmək ənənədir. Bayramda sevdiklərinizi sevindirməyin yollarını axtarırsınızsa, təkliflərimizə nəzər salın:

Uşaqlara hədiyyə etmək üçün sürpriz yumurta, şokolad, konfet kimi sürprizlər hazırlaya bilərsiniz. Ətrafınızda ehtiyacı olan qonşularınız ola bilər. Bu insanları müəyyən edərək bayramdan əvvəl



ehtiyac duyduqları ət, paxlalılar və s. Onları qida ehtiyatı ilə sevindirə bilərsiniz. Küçənizdə yaşayan ev heyvanları üçün ləzzətli yeməklər ala bilərsiniz.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, sosioloq və deputatların da fikirlərini öyrənib.

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Əslində, Yeni İllə bağlı müxtəlif fikirlər var və fikirlərdən biri də budur ki, Azərbaycanda qiymətlər həddindən artıq çox bahadır. Həm xidmət sahəsi, həm ərzaq, həm bayramların təşkil olunmasında işbazlar həmişə olduğu kimi yenə də qiymətləri qaldırmağa başlayıblar. Bəli, Azərbaycanda müxtəlif bayramlar zamanı qiymətlərin qaldırılması ilə bağlı dəfələrlə ictimai etirazlar olub. Dəfələrlə bununla bağlı cəmiyyətin müxtəlif təbəqələri öz kəskin tənqidi fikirlərini söyləyiblər, səsləndiriblər. Amma, hələ ki, problem həll olunmur. Bu və digər dərəcədə bütövlükdə bir həftəyə yaxın istirahət və yaxud bayram tədbirləri, tətilləri zamanı insanların indiki qiymətlərlə hesablasaq hardasa 300-500 civarında xərci çıxması gözlənilir. Orta, yəni 4 nəfərdən ibarət bir ailənin bayram süfrəsi, Yeni İl təbrikləri, Yeni İl hədiyyələri, Yeni İl şənliyi məclislərinə getmək, istirahətləri təşkil etmək, 3-4 günlük rayonlara və yaxud da Bakı ətrafında bağ evlərinə köçüb istirahət etmək bundan iki dəfə və yaxud üç dəfə baha başa gələ bilər. Amma evin içində Bakıda keçirsələr və yaxud rayonların özündə, doğma yerlərdə keçirsələr 300-500 civarında pul xərcləməli olacaqlar. Bu da minimal hesablanmadır. Çünki bilirsiniz ki, son vaxtlar iqtisadi vəziyyət dünyanın hər yerində gərgindir, qiymətlər qalxır, müxtəlif ərzaq və yeyinti məmulatlarının qiymətləri qalxır, xidmət sahələri qiymətləri qaldırırlar, nəqliyyat və logistik xidmətlərindən tutmuş, restoran otel biznesinə qədər hər kəs dünyada gedən iqtisadi proseslər nəticəsində yüksələn qiymətlərə cavab verən qiymətlər təklif edir. Əlbəttə, Yeni il Azərbaycanda xüsusilə də İrandan və şərq ölkələrindən gəlmə turistlər hesabına bir gərginlik yaranır. Əslində, iqtisadiyyat baxımından bu, müsbət bir gərginlikdir, amma, digər baxımdan yəni, qiymətlərin qalxması sıxlıq yaranması baxımından bir qədər Azərbaycan vətəndaşları üçün çətinlik yarada bilər. Yeni il bayramını bütün dünyada bir çox ölkələrdə həm tətilini, həm də bayramını minimalist formada keçirməyə çalışırlar. Yəni, əvvəlki kimi artıq fikir verirsinizsə, yaşıl ağacların kəsilməsi, böyük yolkaların qurulması, şənliklər, cürbəcür təmtəraqlı fişənglərin atılması yox, çox sadə formada öz valideynlərinin, köməyə ehtiyacı olan insanların əhatəsində, ehtiyacı olan şəxslərə kömək etmək formasında və ən əsası da şən, uşaqları sevindirə biləcək bir şəkildə keçirilməsinin şahidi oluruq.



Əslində əvvəllər belə idi ki, orta məktəblər, ali məktəblər, dövlət qurumları, ictimai qurumlar Həmkarlar İttifaqının xətti ilə Yeni il şənlikləri təşkil edərdilər. Amma, son bir neçə ildə xüsusən də pandemiya və müharibəyə görə, şəhidlərimizə görə belə şənliklərin sayı azalıb, insanlar daha çox fərdi olaraq ya tanıdıqları insanların əhatəsində, ya ailə üzvlərinin əhatəsində yeni illəri təşkil edirlər. Ən çox da daha çox ailədaxili tədbirlər olur və bu zaman da əlbəttə ki, böyük məsrəflərə getməməyə çalışırlar.

İndi dünya dəyişir, bilirsiniz ki, durum get-gedə başqalaşır, əvvəlki kimi deyil. Yəni, iqtisadi cəhətdən böyük insan kütləsinin vəziyyəti yaxşı olsun və o vəziyyətə uyğun olaraq da Yeni İlin xərclərini artırsın. Pandemiya, müharibə şəraiti, iqtisadi geriləmə insanların da həyata baxışlarını da dəyişib və bu həyata baxışlar daha minimalist, daha sadə formada başlayıb. Yeni il bayramları zamanı restoran və kafelər, otellər, turistik məkanlar və istirahət zonalarına əgər siz getmək istəyirsinizsə sözsüz ki, bu sizin bir neçə aylıq məvacibinizi xərcləməyə məcbur olacaqsız. Amma, sadə formada, minimalist formada həyata keçirsəniz, bayramınızı təşkil etsəniz, yaxın, doğma adamların əhatəsində, sözün həqiqi mənasında Yeni ili qarşılamağa çalışsanız onda məncə problem yaşanmayacaq və onda o zaman artıq siz böyük xərclərə də düşməyəcəksiniz. Əlbəttə, bütün bunlar arzuolunandır. Çünki, dünyanın hər yerində bu belədir. İnsanlar artıq qapalı mühitdə yox, daha çox əhalinin az olduğu yerlərdə, tutalım, təbiət qoynunda, meşələrdə, bağlarda, ekoturizm və kənd turizmi o cümlədən də kreativ turizmin verdiyi imkanlar daxilində istirahət etməyə çalışırlar. Qış fəslinə təsadüf etdiyinə görə qış istirahət mərkəzləri daha çox həm daxili, həm beynəlxalq turistləri cəlb edəcək. Amma, Azərbaycanın çox gözəl məkanları var ki, orda da qışın özünəməxsus gözəlliyi var. İnsanlar çalışsalar, orda istirahətlərini təşkil etsələr daha bu cür və az məsrəflərlə qış tətillərini və bayramlarını keçirdə bilərlər. Biz bir daha deyirik ki, Yeni il bayramı zamanı həddindən artıq təmtəraqlı süfrələrə, həddindən artıq çox yemək bişirilməsinə, ərzaq və digər xərclərə ehtiyac yoxdur. Sadə süfrə ilə amma sizə ehtiyacı olan insanlara kömək etməklə bu bayramları təşkil edə bilərsiniz".

**Deputat Azər Badamov da məsələyə öz münasibətini bildirib:** "Bayram ərəfəsində bazarlarda məhsulların qiymətlərində müəyyən qədər artımların olmasının təbii hal olduğunu düşünürəm. Çünki ailələr bayramı təntənəli və yüksək əhval ruhiyyə ilə qaşılamaq üçün bazarlıq edirlər. Hər ailə özünün alıcılıq qabiliyyətinə görə bazarlıq edir. Bayram qabağı bazarlıqlarda adi vaxtlardan daha çox tələb yarandığından satıcılar da bundan istfadə edərək qiymətlərdə müəyyən artımlar edərək daha çox qazanc əldə etməyə çalışırlar.

Bazarlarda kəskin bahalaşmanın baş verməməsi üçün dövlət müəyyən şəhərlərdə bayram yarmarkaları təşkil edərək daha uyğun qiymətlərlə kənd təsərrüfatı malları satışa çıxarır. Bu, bazarlardakı qiymətlərə kəskin təsir göstərməsə də daha ucuz qiymətlə məhsullar təqdim edilməklə alıcılara bayram mallarına əlçatanlığının təmin edilməsində müəyyən qədər rol oynayır. Bayram yarmarkaların keçirilməsi ölkəmizdə ənənəvi hal almışdır. Yeni il qabağı belə yarmarkalar bu ildə də paytaxt Bakıda təşkil olunmuşdur. Bayram qabağı qiymət artımları müvəqqəti haldır. Bayramlardan sonra bazarda qiymətlərdə müəyyən qədər azalmaların olacağı gözləniləndir və qiymətlərin bayramlardan əvvəlki səviyyəyə qayıdacağını düşünürəm.

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib:

**Şəhər sakini Aliyə Qarayeva:** "Bəli, qarşıdan Yeni İl bayramı gəlir. İnsanların, xüsusilə də ailə başçılarının üzərinə çox böyük məsuliyyət düşür.



Yəni, bayram xərcləri, bazarlıq, uşaqlar üçün hədiyyələr və s. Bütün bunları hamı almaq istəyir. Hamı istədiyi kimi bayram bazarlığı edə bilmir. Çünki, günü-gündən qiymətlərin artdığını müşahidə edirik. Ailədə normal məvacib olmalıdır ki, hamı istədiyi kimi bayram bazarlığı etsin. Mənə belə gəlir ki, normal şəkildə bir bayram bazarlığı etmək üçün minimum 250-300 manat pul lazımdır. Mən normal bazarlığı nəzərdə tuturam. Təbii ki, bu rəqəmlər daha da çox ola bilər. Bayram bazarlığı etmək üçün əlbəttə ki, ailədə normal maaş olmalıdır. İmkan daxilində hamı istəyir ki, bayrama yaxşı hazırlaşsın. Bunun üçün insanların maddi vəziyyəti yaxşı olmalıdır".

**Şəhər sakini Paşa Məmmədov:** "Bayram ərəfələrində bazarlarda, restoran və otellərdə qiymət artımı müşahidə olunur. Səbəb isə artan tələbat və bəzi işbazların artıq qazanmaq həvəsidir. İnsanların xüsusi günlərini yadda qalan keçirmə həvəsi və işbazların bundan sui-istifadə etməsi bayram günlərinin xərcini daha da artıran səbəblərdəndir".

**Şəhər sakini Zərintac Maisqızı:** "Bəli, bir çoxumuz həyəcanla, gözəl arzularla yeni ili gözləyirik. Bayram üçün hazırlıq görürük, yəni, çox pul xərcləyirik. Bütün bayramlarda digər günlərdən fərqli olaraq xərcimiz daha çox çıxır. Hələ qiymətlərin də baha olması maddi vəziyyətimizə uyğun gəlmir. Ona görə də, bayramlar bizə baha başa gəlir. Bayrama görə qiymətlər aşağı olsa, bəzi şeyləri pulsuz paylasalar istər Yeni İl, istərsə də digər bayramlar maraqlı keçər. Yəni ən kasıb adam belə bayramları gözəl keçirə bilər. Mən ümumi baxanda qiymətlərdən narazıyam".

**Şəhər sakini Alidə Qarayeva:** "Əvvəlki illərə nisbətən bu Yeni İldə bazarlıq xərcimiz daha çox çıxacaq. Bu da bahalaşma ilə əlaqədardır. Düşünürəm ki, ən azından normal bayram bazarlığı üçün 250-300 manat pul ayırmaq lazımdır. Ən çox pul aparan qidalar isə ət və yağdır. Həmçinin tərəvəzlər də buraya daxildir".

***Ayşən Vəli***

# Rusiyalı politoloq:

## "Ermənistanda miqrasiya faktoru sürətlə artacaq"



Rusiyalı ekspert Andrey Areşevin fikrincə, Nikol Paşinyan rejimi öz səviyyəsi sayəsində ictimai düşüncəyə qarşı hazırladığı manipulyativ fəndləri, eləcə də afişa olunmayan xarici dəstəyi, xüsusilə polis vasitəsi ilə nə qədər dayanıqlı olduğunu kifayət qədər göstərdi. Onun sözlərinə görə, erməni güc strukturları bundan sonra da, onsuz da az sayda olan etiraz aksiyalarını dağıdacaq. "Ermənistandakı etiraz əhval-ruhiyyəsi heç yerə getməyəcək, xüsusilə sosial-iqtisadi situasiya daha da pisləşəcək", deyə politoloq proqnozlaşdırıb.

Lakin o, istisna etmir ki, belə əhval-ruhiyyələr elə də aktiv deyil, passiv formada görünəcək. Arşevin həmçinin hesab edir ki, ölkədə miqrasiya faktoru sürətlə artacaq, bu baxımdan da Ermənistanda iqtisadi vəziyyətin yaxşılaşması ümumiyyətlə görünmür, əksinə, xarici borc çoxalır, qiymətlər artır. "Lakin ən neqativ faktor insanların öz təhlükəsizliklərinə inamlarının itirilməsidir ki, bu da ölkədən miqrasiya hallarını daha da artıracaq", rusiyalı politoloq bildirib.

***Rövşən RƏSULOV***



# Türkiyə və Ermənistanın xüsusi nümayəndələri görüşəcək

"Regionda Ermənistanla son zamanlar etimadı artıran əlaqələrimiz davam edir. Birbaşa əlaqələrimiz üçün qarşılıqlı xüsusi nümayəndələrimizi təyin etdik və ən qısa zamanda xüsusi nümayəndələrimiz bir araya gələcək". "İki sahil" xəbər verir ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Ankarada səfərdə olan Malayziyanın xarici işlər naziri Dato Saifuddin Abdullahla birgə keçirilən mətbuat konfransında bildirib.

M.Çavuşoğlu deyib ki, yaxın gələcəkdə Ermənistana birbaşa təyyarə reysləri fəaliyyətə başlayacaq: "Daha öncə "Atlas Global" şirkətləri uçuşları təmin edirdi, hazırda bəzi şirkətlərin müraciətləri olub. Nəqliyyat və İnfrastruktur Nazirliyi və Mülki Aviasiya Baş İdarəsi ilə bərabər bu istiqamətdə fəaliyyətəri davam edir, bu müraciətlərə baxılır".

M.Çavuşoğlu bir daha vurğulayıb ki, Ermənistanla bağlı verilən bütün qərarlarda Azərbaycanla birgə məsləhətləşmələr aparılır və qərar verilir: "Bizim arzumuz Cənubi Qafqazda sülhün bərqərar olması, Zəngəzur dəhlizinin açılmasıdır".

# Azərbaycan- Aİ yaxınlaşmalarına Rusiya necə reaksiya verəcək



**”Son vaxtlar Azərbaycanla Qərb arasındakı münasibətlərdə yeni mərhələ başlayıb. Xüsusilə Avropa İttifaqı ilə əlaqələrimiz genişlənir. Ümumiyyətlə, sözügedən qurumla münasibətlər Azərbaycanın xarici siyasətinin prioritetləri sırasındadır. Azərbaycan Aİ ilə münasibətlərini bərabərhüquqlu tərəfdaşlıq əsasında inkişaf etdirir. Azərbaycan Prezidenti İlham Əliyev 2004-cü ildən etibarən Aİ ilə bağlı 9 dəfə Brüsselə səfər edib. Aİ Azərbaycanın əsas ticarət tərəfdaşı, o cümlədən ən böyük ixrac tərəfdaşıdır”. Bu fikirləri SİA-ya açıqlamasında siyasi şərhçi Kənan Novruzov deyib.**

Onun sözlərinə görə, Azərbaycanın ticarətinin 40 faizdən çoxu Aİ üzv dövlətlərinin payına düşür: ”2020-ci ildə ticarət dövriyyəsi 9,5 milyard ABŞ dolları olub. Aİ üzv dövlətlərindən 1700-dən çox şirkət Azərbaycanda fəaliyyət göstərir. Azərbaycan Avropa bazarlarına xam neft nəql edən etibarlı təchizatçıdır. Azərbaycanın qaz ehtiyatları ölkəmizin ən azı 100 il ərzində Avropaya qaz nəql etməsinə imkan verəcək. Azərbaycanın dəstəyi ilə ərsəyə gəlmiş Cənub Qaz Dəhlizi Avropaya enerji mənbələrinin şaxələndirilməsi üçün geniş imkanlar yaradır. Uzunluğu 3500 kilometr olan Cənub Qaz Dəhlizi 7 ölkəni birləşdirir. 2021-ci ilin iyun ayında Ermənistanın Ağdam rayonu üzrə mina xəritələrini Azərbaycana təqdim etməsi, Azərbaycanın 15 ermənini Ermənistana təhvil verməsi kimi humanitar aksiyanın həyata keçirilməsində Aİ Şurasının Prezidenti Şarl Mişelin də vasitəçilik rolu olmuşdur”. Bundan başqa, Aİ Azərbaycan və Ermənistan arasında etimad quruculuğu tədbirlərinə, regionda kommunikasiyaların açılması prosesinə də töhfə verə bilər.

K.Novruzov vurğulayıb ki, əlbəttə, bu, heç də Rusiyanın ürəyincə deyil: ”Çünki Bakı və İrəvanın Qərblə dialoqları Moskvanın Cənubi Qafqazdakı təsir qüvvəsinin azalması deməkdir. Xüsusilə Aİ- nin Qarabağdakı bərpa işlərində iştirak etməsi Kremlin torpaqlarımızla bağlı çirkin planlarının üstündən xətt çəkilməsidir. Doğrudur, bizim Aİ ilə münasibətlərimiz uzun illərdir davam edir, yəni yeni deyil. Ancaq durum dəyişir. İndi Qərblə Rusiya arasındakı mübarizə daha amansızdır. Bölgənin dünya gücləri üçün əhəmiyyəti isə getdikcə artmaqdadır. Belə olan halda indidən təxmin etmək olar ki, Qərb regiona gəlməkdən ötrü əlaqələrin güclənməsində maraqlıdır. Lakin Rusiyanın Azərbaycan- Aİ, Ermənistan- Aİ münasibətlərinə səssiz yanaşacağını düşünmək sadəlövhlük olar. Şimal qonşumuzun hər iki tərəfə təzyiqləri artıracağı istisna deyil. Həmçinin Ermənistan ordusundakı ruspərəst qüvvələrin ”əli ilə” təxribatlarına baş verməsi, beləliklə, ziddiyətin yaranması mümkündür. Moskva bilir ki, belə olsa, hər iki tərəf istər- istəməz, bütün hallarda üzünü Kremlə çevirəcək. Lakin düşünürəm ki, Kremli fakt qarşısında qoymaqdan ötrü Qərblə əlaqələrimizi gücləndirməyə davam etməliyik. Hər halda Qərb iki pisdən daha az pisi olanıdır. Birincisi ona görə ki, Rusiya bizə daha yaxındır, təhdid imkanları daha çoxdur. İkincisi, hazırda Qarabağ məsələsində Qərbə nisbətən Rusiyanın təsir imkanları daha çoxdur. Bizim Aİ ilə yaxınlaşmağımız bu məsələdə balans yaradacaq, başqa sözlə, Moskvanın ”rıçak”larını azaldacaq. Üçüncü bir tərəfdən isə qardaş Türkiyənin NATO ölkəsi olması Qərbdən gələn təhlükələr üçün ”hava yastığı” ola bilər”.

***Aysel Məmmədova***



## Dövlət uşaq bağçaları niyə Təhsil Nazirliyinin tabeliyinə verildi?

“Hesab edirəm ki, bu qərarın qəbul edilməsi ümumilikdə təhsilin idarə edilməsinə, çevik qərarların qəbul edilməsinə və proseslərə adekvat reaksiya verilməsinə öz müsbət təsirini göstərəcək”. Bu sözləri SİA-ya açıqlamasında deputat Ceyhun Məmmədov deyib.



Onun sözlərinə görə, proseslərin təsiri bir çox sahələr və şöbələr üzrə idarəetmənin effektiv olmadığını göstərir: ”Yəni, əvvəlki dövrdə biz görmüşdük ki, Mədəniyyət Nazirliyinin bölgələr üzrə şöbələri yaradıldı. Bu gün də artıq təhsil üzrə idarələrin yaradıldığını müşahidə edirik”.

Deputat sözlərinə belə davam edib: ”Hesab edirəm ki, bu bizim ümumi təhsilimizin inkişafına öz töhfəsini verə bilər. Yəni, bu həm də müəyyən mənada dövlət büdcəsinin qənaətinə, daha effektiv idarəetmənin həyata keçirilməsinə öz müsbət təsirini göstərəcək. Bağçaların da Təhsil Nazirliyinin nəzarətində olması daha effektiv ola bilər. Bildiyimiz kimi, bağçaların fəaliyyəti həm də təlim-tərbiyə prosesi deməkdir. Bu baxımdan da bu qərar bağçalara da öz müsbət təsirini göstərəcək”.

Məsələ ilə bağlı təhsil məsələləri üzrə ekspert Elçin Əfəndi də öz fikirlərini qeyd edib: ”Başlıca olaraq onu qeyd edə bilərik ki, təhsil şöbələrinin ləğv olunması və regional təhsil idarələrinin yaradılması ilk növbədə yəni, biz bunun başlanğıc mövqeyini götürsək korrupsiya, rüşvət hallarının qarşısının alınmağa hesablanmış bir addım ola bilər və belə də olacaq. Çünki, əvvəl təhsil şöbələrində təəssüflər olsun ki, məktəblərə müəyyən müdaxilələr olurdu. Eyni zamanda müvafiq olaraq müəllimlərin işlə təmin olunmasında və s. kimi məsələlərdə biz korrupsiya faktlarının daha çox təhsil şöbələrindən gəldiyini müşahidə edirdik və şahidi olurduq.



Qaldı ki, uşaq bağçalarının Təhsil Nazirliyinə verilməsinə yəni, uşaq bağçaları 10 il bundan əvvəl də Təhsil Nazirliyinin tabeçiliyində idi. Sadəcə müəyyən məsələlərdən dolayı İcra Hakimiyyətinin tabeliyinə verildi. Hansı ki, həmin İcra Hakimiyyətlərinin strukturuna daxil olan bağçaların demək olar ki, fəaliyyət göstərmədiyinin şahidi olduq və eyni zamanda burada korrupsiyalar, rüşvətin şahidi olduq, məktəbəqədər hazırlıqda, bağçalarda təhsil alan şagirdlərin qidalarına belə əl uzadanlar oldu, tanışlıq vasitəsilə bağça müdiri vəzifəsini icra edən şəxslər, müəyyən rüşvət qarşılığında ora müəllim kimi fəaliyyətə başlamasına imkan verən şəxslər və s. Bu kimi amilləri biz müşahidə etdik və bunun da nəticəsi olaraq hər il demək olar ki, bağçalardan şikayətlər daxil olurdu.

Düşünürəm indi Təhsil Nazirliyinin tabeliyinə verilməsi artıq bu sahədə şəffaflığın qorunub saxlanılmasına xidmət edə bilər və tədricən bağçaların yeni müasir standartlarda fəaliyyət göstərməsinə, eyni zamanda yeni təhsil sisteminin bərqərar olmasına, korrupsiya və rüşvət hallarının qarşısının alınmasına xidmət etmiş ola bilər”.

***Ayşən Vəli***

# “Yeni ”Media haqqında” qanun əvvəlki qanundan çox fərqlənir”



**””Media haqqında” qanun layihəsi medianın inkişaf proseslərini və hərəkətini tənzimləyəcək. Onun fəaliyyətinin hüquqi çərçivələrini daha da konkretləşdirmək və dərinləşdirmək baxımından yeni qanun maraqlıdır. Eyni zamanda medianın praktik fəaliyyət müstəvisində meydana çıxan problemlərin, təzahürlərin idarə edilməsi, neqativ təsəvvürlərin qarşısının alınması və pozitivlərin isə idarə edilərək daha da gücləndirilməsində media haqqında qanun öz təsirini göstərəcək”. Bu sözləri SİA-ya açıqlamasında ”Bakı Xəbər” qəzetinin Baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

Onun sözlərinə görə, yeni qanun media sektoruna aid olan bir sıra kateqoriyaların, terminlərin dəqiqləşdirilməsi baxımından əhəmiyyətlidir: ”Çünki indiyə qədər medianın özünün nə olduğu, jurnalistin kim olduğu, kimə jurnalist deməyin mümkün olub-olmadığı ilə bağlı suallar meydana çıxır. Həmin bu sualları tənzimləməkdə köhnə qanun gücsüz idi. Amma yeni qəbul olunmuş qanun informasiyanın, medianın mahiyyətini müəyyənləşdirilməkdə, redaksiyaların və jurnalistlərin hüquqi, sosial portretinin dəqiq çərçivəsini tapmaqda yardımçı olacaq. Bundan başqa media orqanlarının vahid təsnifatının aparılması və dəqiq şəkildə müəyyənləşdirilməsi yeni qanunun üstünlüklərindən biridir. Artıq biz media orqanı olaraq, çap medianı, onlayn medianı və audiovizual medianı bir-birindən aydın şəkildə fərqləndirə biləcəyik”.

Aydın Quliyev sözlərinə davam edərək həmçinin qeyd edib ki, yeni media qanunu jurnalistlərə dövlətin dəstəyini, himayəsini, eləcə də media orqanları ilə, jurnalistlər ilə cəmiyyətin münasibətlərinin daha da dəqiqləşdirilməsinə hüquqi cəhətdən əsaslandırılmasına və media orqanlarına dövlətin dəstəyinin daha geniş təmin olunmasına lazım olan imkanları açır: ”Əlbəttə qanunun nə qədər gözəl yazılmasından asılı olmayaraq onun tətbiq olunması və icrası əsasdır. Bu nöqteyi-nəzərdən nəzərə alsaq ki, yeni media qanunun hazırlanmasında media agentliyi daha aktiv və üstün rol oynayıb. Eləcə də onun gələcəkdə icrasına da əsas məsuliyyət daşıyan subyekt MEDİA agentliyi daha aktiv və üstün rol oynayıb və eləcə də onun gələcəkdə icrasına da əsas məsuliyyət daşıyan subyekt MEDİA agentliyi olacaq. Belə olduqda qətiyyətlə demək mümkündür ki, yeni qanunda əks olunan bir sıra prinsipial müddəaları ümumiyyətlə yeni qanunun konsepsiyasının və praktikasının həyata keçirilməsində biz maneçilik görməyəcəyik. Demək olar ki, bu qanun uzun bir dövr medianın inkişaf proseslərini tənzimləyə biləcək. Çox yaxşı bir haldır ki, ilk dəfə olaraq ölkəmizdə media reyestri tətbiq olunacaq. Media reyestri və vahid jurnalist kartları bizim jurnalist və media praktikamızda yenilikdir. Yeni qanun jurnalistlərin sosial müdafiəsi, media orqanlarının iqtisadi müstəqilliyinin artırılması və iqtisadi fəaliyyət dairəsinin genişləndirilməsi istiqamətində də yollar açır. Bir sözlə yeni media qanunu təkcə adı ilə, məzmunu ilə yeni deyil, eyni zamanda medianın və onun bütün seqmentlərin fəaliyyətini daha geniş miqyasda tənzimləməkdə və inkişaf şəraiti açmaqda əvvəlki qanundan çox fərqlənir”.

***Arzu Qurbanzadə***



# Svyatoslav Andrianov:
# “Rusiya İrəvana təzyiqdən əl çəkməyəcək”



**Qarabağ münaqişəsi heç vaxt Rusiya ilə Qərb arasında qarşıdurma platforması olmayıb. SİA xəbər verir ki, bu sözləri Rusiya Siyasi Təhlil və İnformasiya Təhlükəsizliyi Mərkəzinin direktoru, Almaniya İqtisadi İnkişaf və Xarici İqtisadi Əlaqələr üzrə Federal İttifaqının (BWA) Senatının üzvü Svyatoslav Andrianov ”Caliber” analitik mərkəzinə şərhində deyib.**

Ekspert qeyd edib ki, hazırda hər şey Aİ-nin Qarabağ probleminin həlli üçün Rusiya ilə sinxron hərəkət etmək niyyətində olduğu görünür: ”Hazırda belə görünür. Noyabrın 24-də Rusiya Prezidenti Vladimir Putin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelə Qarabağ üzrə üçtərəfli sazişlərin müddəalarının həyata keçirilməsi, o cümlədən dinc həyatın bərqərar edilməsi, Azərbaycanda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində atılan addımlar barədə məlumat verib. Cənubi Qafqaz və noyabrın 26-da Soçidə Vladimir Putin, İlham Əliyev və Nikol Paşinyan arasında üçtərəfli formatda bu məsələlər müzakirə olunub.

Dekabrın 14-də Avropa Şurasının prezidenti Azərbaycan prezidenti və Ermənistanın baş naziri ilə görüşdə Aİ-nin sərhədlərin delimitasiyası və demarkasiyasına dəstək üçün hər iki ölkəyə məsləhət və texniki yardım göstərməyə hazır olduğunu bəyan edib. Öz növbəsində Əliyev və Paşinyan Avropa İttifaqını Qarabağla bağlı sazişlərin icrasına sadiq qalacaqlarına əmin ediblər. Brüsselin 2020-ci il noyabrın 9-da, eləcə də bu ilin 11 yanvar və 26 noyabr tarixlərində əldə olunmuş üçtərəfli razılaşmalar çərçivəsində konstruktiv fəaliyyət göstərməyə davam edib-etməyəcəyini zaman göstərəcək, hər halda Brüsselin bu məsələyə müdaxilə etmək cəhdi var. Qərb Moskva, İrəvan və Bakı arasında da yuxarıda qeyd olunan qərarların icrası prosesində iştirak etmək istəyir.

Gürcüstan və Ukraynadan fərqli olaraq, Qarabağ münaqişəsi heç vaxt Rusiya ilə Qərb arasında qarşıdurma platforması yaratmayıb. Uzun illərdir ki, Moskva və Brüssel nümayəndələri sülh prosesini birgə irəlilətməyə hazır olduqlarını nümayiş etdiriblər”,- Andrianov bildirib.

Politoloq hesab edir ki, ümumiyyətlə, Aİ-nin bu istiqamətdə səylərini gücləndirmək, bununla da regionda imkanlarını genişləndirmək istəyi açıq-aydın var, ona görə ki, bir tərəfdən Cənubi Qafqaz həmişə Qərb ölkələri üçün böyük maraq doğurub, digər tərəfdən, indi onilliklər ərzində ilk dəfə olaraq regionda yeni ticarət əlaqələrinin və iqtisadi əməkdaşlığın gücləndirilməsinin real perspektivi var.

Andrianovun sözlərinə görə, ola bilsin ki, Ermənistan bütün razılaşmaları yerinə yetirməyəcək və bəlkə də bu, dərhal olmayacaq, lakin hazırda vəziyyət ümidverici görünür: ”Əvvəla, yuxarıda haqqında danışdığım Brüsseldə keçirilən son sammitdə tərəflər 9 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixli razılaşmaların daha da həyata keçirilməsinə və onlara riayət olunmasına, o cümlədən münaqişənin ən sürətli həllinə yönəlmiş birgə səylərin intensivləşdirilməsinə sadiq olduqlarını bir daha təsdiqlədilər. Bundan əlavə, tərəflər Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin səviyyəsinin yüksəldilməsi üçün səylərin göstərilməsi və Rusiyanın birbaşa yardımı ilə dövlət sərhədinin delimitasiyası ilə onun sonradan demarkasiyası üzrə ikitərəfli komissiyanın yaradılması barədə razılığa gəliblər. Son sammitin nəticələrinə əsasən, Moskva nizamlanma prosesində müstəsna rolunu bir daha təsdiqlədi.

İkincisi, Ermənistanın öz öhdəliklərini yerinə yetirməsi ilə bağlı Rusiyanın ardıcıl mövqeyi var və hesab edirəm ki, Moskva yaxın gələcəkdə İrəvanın üzərinə düşən bütün öhdəlikləri tez bir zamanda yerinə yetirməsi məqsədilə ona ardıcıl təzyiqdən əl çəkməyəcək. Belə ki, məsələn, biz Laçın dəhlizi ilə bağlı məsələlərin konstruktiv həllinin, eləcə də Zəngəzur dəhlizinin yaradılmasının tərəfdarıyıq. Bundan başqa, 9 noyabr razılaşmasının əksinə olaraq, Qarabağdan qovulmuş azərbaycanlılar hələ də Rusiya sülhməramlı kontingentinin nəzarətində olan ərazilərdə erməni silahlılarının qalması səbəbindən hələ də geri qayıtmayıb. İndiyə qədər kifayət qədər bu kimi həll olunmamış problemlər var, Moskva isə başa düşür ki, bu həll olunmamış problemlər, şübhəsiz ki, gələcək sülhməramlı prosesə mənfi təsir edəcək.

Üçüncüsü, son vaxtlar ermənilərin özləri də regionda, o cümlədən Ermənistanla Türkiyə arasında nəqliyyat yollarının bağlanmasının lehinə fəal şəkildə çıxış etməyə başlayıblar. Düşünürəm ki, İrəvanın özü də öhdəliklərinin vaxtından əvvəl yerinə yetirilməsində maraqlıdır, çünki ölkə rəhbərliyi yaxşı bilir ki, Ermənistan uzun illər ərzində bir sıra mühüm və perspektivli nəqliyyat və logistika layihələrinin kənarında qalıb və özünəməxsus coğrafi imkanlarından istifadə etməyib”.

*Tərcümə - Elçin Bayramlı*

# Regionun nəqliyyat marşrutlarında hansı dəyişikliklər ola bilər?



**Hazırda Zəngəzur dəhlizinin əhəmiyyətindən bəhs etdikdə, onu daha çox Azərbaycanı digər ərazisi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirməklə bütövlükdə türkdilli ölkələri quru yolla əlaqələndirən vasitə kimi təqdim edirlər. Maraqlıdır ki, bu dəhlizin üstünlüklərindən bəhs edərkən onu Bakı-Tbilisi-Qars dəmiryolu xətti ilə müqayisə edənlər də var.**

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Qapalı Səhmdar Cəmiyyətinin Strateji Planlama və İnkişaf departamentinin müdiri Xudayar Həsənli isə hesab edir ki, Zəngəzur dəhlizinin strateji əhəmiyyəti daha böyükdür və Azərbaycana bir neçə istiqamətdə üstünlüklər qazandıracaq. Vaxtilə bu marşutla keçmiş SSRİ-nin 2,7- 3 milyon tona yaxın yük dövriyyəsi olduğunu xatırladan X. Həsənlinin fikrincə, Zəngəzur dəhlizindən sonra Türkiyədən Mərkəzi Asiyaya gedən TIR-ların (ağır tonnajlı yük avtomobillərini nəzərdə tutur-C.P) yolu qısalacaq: Hazırda TIR-lar Türkiyədən Azərbaycana keçmək üçün Gürcüstan sərhədini keçməli olur. Bu mənada Zəngəzur dəhlizi vaxta da qənaət etməyə imkan verəcək”.

Departament rəhbəri bildirib ki, TIR-ların Gürcüstana daxil olması üçün rüsumlar ödənilir: ”Zəngəzur dəhlizində sərhəd-gömrük keçid məntəqəsinin olacağı hələ ki, nəzərdə tutulmayıb. Gürcüstanda hər TIR üçün gömrük ödənişi 150-250 ABŞ dolları arasında olur. Həmçinin məsafənin qısalması yanacaq xərclərini də azaldacaq”.

X. Həsənli bu qənaətdədir ki, bütün bunlar Türkiyənin Mərkəzi Asiya olan TIR dövriyyəsinin 40-50 faizinin ölkə ərazisindən keçməsinə imkan verə bilər. Hazırda bu dövriyyənin 20 faizə qədəri Azərbaycanın ərazisindən keçir.

Müsahibimiz deyir ki, çoxları düşünür ki, Azərbaycanın və Mərkəzi Asiyanın Çindən idxal etdikləri məhsullar böyük konteyner daşıyan gəmilərlə Süveyiş kanalını keçərək Dardanel boğazına daxil olur, Qara dəniz və Poti Limanına qədər gəlir. Poti limanından yüklər boşaldılır və Azərbaycana və Orta Asiyaya gəlir: ”Amma bu, əslində tam belə deyil. Yüklər İstanbula gəlir. Poti limanı böyük konteyner daşıyan gəmiləri qəbul edə bilmir. 10-15 min TEU konteyner tutan bu gəmilər əsasən İstanbulun Ambarlı limanına gəlir və yük buradan daha kiçik gəmilərə boşaldır və onlar vasitəsilə Qara dəniz sahili ölkələrinə paylanılır. Boşaldılma-yüklənmə prosesi 3-5 gün çəkir”.

Amma Zəngəzur dəhlizindən sonra yüklər Mersin limanına gələ bilər. Buradan həm dəmiryolu, həm də TIR daşımaları ilə yüklər düz xətlə Qarsı və Naxçıvanı keçməklə Zəngəzur dəhlizinə daxil ola bilər. X. Həsənli hesab edir ki, belə vəziyyətdə yüklər Süveyiş kanalını keçib Mersinə çatacaq. Eyni zamanda, Poti limanı ilə Mersin limanı arasında xeyli qiymət fərqi var: ”Bir konteynerin Poti limanına çatdırılması xərcləri 466 ABŞ dolları, Mersin limanına 200-250 dollardır. Vaxt baxımdan isə 12-14 gün fərq var, yəni yük daha tez gələcək”.

Departament müdiri deyir ki, eyni zamanda, Zəngəzur dəhlizi üzərində logistika mərkəzləri qurula bilər. Logistik həllər vasitəsilə daşımaların səmərəliliyini artırmağı nəzərdə tutan bu mərkəzlərlə həm Bakı limanını, həm də Türkiyəni birləşdirməklə TIR-ları Zəngəzur dəhlizinə cəlb etmək olar: ”Logistik həllə yükləyib və boşaltma müddəti və zamanlama aiddir. Əgər həm dəmiryolu, həm də TIR-larla daşımada sabit zamanlama təşkil edilərsə, Türkiyə-Mərkəzi Asiya, Çin-Mərkəzi Asiya, Avropa-Mərkəzi Asiya istiqamətində yükləri bu dəhlizə cəlb etmək mümkündür. Hazırda bu sahədə boşluq var. Poti limanına pandemiyaya qədər 500-520 min TEU konteyner yük gəlirdi (Ötən il bu göstərici 100 min TEU konteyner azalıb). Bunun 80-90 faizi tranzit yükdür. Bu yüklər Azərbaycanla yanaşı, Rusiyadan keçir. Bu yüklər də Zəngəzur dəhlizinə yönələ bilər.

Müsahibimiz hesab edir ki, Zəngəzur dəhlizi Azərbaycanın LPİ indeksinin (Logistik Performans indeksi) yüksəlməsinə səbəb ola bilər. Ölkəmizin dünya okeanlarına birbaşa çıxışı yoxdur, Gürcüstan vasitəsilədir. Azərbaycan üzrə indeksin müəyyən olunması üçün Gürcüstanda sorğu alınır. Sərhəd -gömrük keçid məntəqəsi nəzərdə tutulmadığından Zəngəzur dəhlizindən sonra ikinci belə sorğu alınacaq ölkə Türkiyə olacaq. Türkiyədən daha yaxşı qiymət almaq mümkündür. Bu indeks üzrə göstəricinin artması Azərbaycanın logistik şirkətlərinin beynəlxalq layihələrdə daha çox iştirak etməsinə imkan verəcək.

***Ceyhun Piriyev***

# Prezidenti İlham Əliyev - Sözü imzası qədər qüvvətli olan Lider!



Bəli, Prezident İlham Əliyevin bu günə qədər verdiyi bütün vədlər artıq reallığa çevrilib. Bəli, 18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Ulu Öndər Heydər Əliyev: ”İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”,- vəsiyyətini reallaşdıran Prezident İlham Əliyev: ”Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm”,- deyərək son 18 illik Prezidentlik fəaliyyətinin nəticəsidir ki, son 30 il ərzində həsrətində olduğumuz Qarabağ Azərbaycandır!ımıza, haqq və şərəf işimiz olan, Azərbaycan Respublikamızın suverenliyi, ərazi bütövlüyümüzə və nəhayət, Qələbə Zəfərimizə nail olduq!



***MEHDİ BALABƏYOV,***
***YAP Şabran rayon təşkilatının sədrinin səlahiyyətlərini icra edən***

”Şuşasız Qarabağ, Qarabağsız Şuşa yoxdur”,- deyən Ulu Öndər Heydər Əliyevin bu arzusunu da bu gün Prezident İlham Əliyev ”Şuşasız işimiz yarımçıq qalar” deyərək reallaşdırdı: ”Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”.

**Azərbaycan Prezidenti İlham Əliyev son 18 ildə öz vədini yerinə yetirdi və bu gün də xalqı qarşısında bir daha sözü ilə əməli bir olan Liderdir!**

Bəli, bu, həqiqətən də belədir. ”Əsl siyasət konkret, real iş görməkdən ibarətdir” deyən dövlət başçısının ötən illərdə qəbul etdiyi fundamental qərarlar, imzaladığı sərəncamlar Cənab Prezidentin daim xalqın mənafeyindən çıxış etdiyini, habelə, verdiyi vədlərin sırf əməli fəaliyyətə, praqmatizmə söykəndiyini, gerçəkliyə adekvat olduğunu göstərmişdir. Çünki bugünkü Azərbaycan vətəndaşı həyata başqa nəzərlərlə baxır, özünə və ölkəsinin bundan da daha böyük uğurlar əldə edəcəyinə inanır. Bu inam, hər il görülən daha böyük uğurların nəticələrini gördükcə, sabaha daha böyük bağlılıqla inanır.

Dövlətimizin başçısı İlham Əliyev Dövlət Bayrağı Meydanının açılışında çıxış edərkən demişdi ki, gün gələcək və Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaq. Prezident İlham Əliyev 2021-ci ilin yanvarın 14-ü həmin vədini yerinə yetirdi və Şuşa səfəri müzəffər Ali Baş Komandanın sözünün və əməlinin vəhdətinin növbəti nümayişi oldu. Bununla da, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı qaldırdı.

Ali Baş Komandanımız Prezident İlham Əliyev çıxışlarında ərazi bütövlüyümüz bərpa ediləndən sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstləri yenə də Şuşada qoyulacağını demişdi. Bu sözlər də artıq reallığa çevrilib və artıq həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşada güllələnmiş büstləri erməni vandalizminin şahidləridir. Birinci Qarabağ müharibəsi dövründə ermənilər dahi şəxsiyyətlərimizin büstlərini təhqir edəndən sonra onları əridib satmaq, pul əldə etmək üçün Ermənistana aparmışdılar. Lakin ulu öndər Heydər Əliyevin tədbirləri nəticəsində bu büstlər ermənilərdən pulla alınmışdı və artıq onlar Şuşadadırlar.

> Heç kəsə sirr deyil ki, Azərbaycan Prezidenti İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib. Prezident İlham Əliyev hər zaman çıxışlarında bildirib ki, "Mənim sözüm imzam qədər qüvvətlidir"

## ZƏFƏR ARDINCA ZƏFƏR: ”BÖYÜK QAYIDIŞ”A DOĞRU İNAMLI ADDIMLAR

Artıq işğaldan azad edilmiş torpaqlarımızda quruculuq, bərpa prosesi sürətlə, uğurla davam etməkdədir. Ən əsası isə, xalq görülən işlərin şahidi olur, Qalib Liderimizin gördüyü işləri bəyənir, dəstəkləyir. Çünki sözü imzası qədər qüvvətli olan Liderimiz, Prezident İlham Əliyev bu günə qədər verdiyi bütün vədləri yerinə yetirib.

Vətən müharibəsində qazanılmış Zəfərdən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanılıb. Qələbədən sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın həmin ərazilərə çoxsaylı səfərləri zamanı yeni infrastruktur obyektlərinin təməli qoyulur, yeni layihələrə start verilir. Böyük qələbənin rəmzi olan və Şuşaya çəkilən Zəfər yolu artıq başa çatmaq üzrədir. Azərbaycan xalqı Şuşada, Cıdır düzündə 27 ildən sonra ilk Novruz tonqalının alovlandırılması, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ”Xarıbülbül” musiqi festivalının və Vaqif Poeziya Günlərinin təşkili, Prezident İlham Əliyevin Qarabağın hava qapısı adlandırdığı Füzuli Beynəlxalq Aeroportunun uçuş-eniş zolağının istifadəyə verilməsi, Zəngilanda ”ağıllı kənd”in inşasına başlanması keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdacaqları günün uzaqda olmadığına, tezliklə Qarabağı azad edən Liderimizin onu həm də cənnətə çevirəcəyinə inanır!

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: ”Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl guşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir”.

Bir sözlə, bu gün Azərbaycan xalqı da Qalib Liderimiz Prezident İlham Əliyevin son 18 il prezidentlik fəaliyyəti dövründə bir daha gördü ki, Azərbaycan Prezidenti daima xalqı ilə birlikdədir, onların yanındadır, bütün görülən işləri də xalqına aydın şəkildə çatdırır.

Dövlət başçısının söylədiyi kimi, son 18 il ərzində bir dənə də yerinə yetirilməyən vəd yoxdur və bu gün ”Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm” - Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur. Və bu günün reallıqları onu göstərir ki, qələbəmizdən ötən bir il ərzində həm siyasi, həm də iqtisadi baxımdan mühüm nailiyyətlərə imza atan - SÖZÜ İMZASI QƏDƏR QÜVVƏTLİ OLAN LİDER Prezidenti İlham Əliyevin apardığı düzgün siyasət nəticəsində çox qısa zamanda Qarabağın yenidən dirçələcəyinə, 2022-ci ildə də yeni-yeni uğurlara nail olacaq!

---

# “Azərbaycan son 18 ildə”

21 dekabr 2021-ci il tarixdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı ”Azərbaycan son 18 ildə” mövzusunda onlayn görüş keçirmişdir. Görüşü giriş sözü ilə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Seyfəddin Əliyev açmış, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Azərbaycan xalqı ətrafında sıx birləşdiyi, sonsuz etimad, inam, dəstək nümayiş etdirdiyi Prezident cənab İlham Əliyevi vətənpərvərlik, qətiyyət, əzm, prinsipiallıq və dönməzlik rəmzi kimi görür deyən Seyfəddin Əliyev bildirib ki, ötən müddət ərzində Ümummilli Lider Heydər Əliyevin ”Mən ona özüm qədər inanıram” sözlərini əməli işləri ilə təsdiq edən Prezident İlham Əliyev Azərbaycanda yeni dövrün, yeni eranın başlanğıcının əsasını qoyub. Aparılan uğurlu siyasət nəticəsində Azərbaycanda sosial-iqtisadi vəziyyət





yaxşılaşıb, multikultural ənənələrə və milli-mənəvi dəyərlərə söykənən cəmiyyətin formalaşması təmin edilib. Eyni zamanda, güclü və dayanıqlı iqtisadiyyat uğurla yaradılıb, ölkənin artan imkanları insan kapitalının formalaşmasına, əhalinin sosial rifahının daha da yüksəlməsinə yönəldilərək Azərbaycanın nümunəvi sosial siyasət həyata keçirən dövlətə çevrilməsi təmin edilib.

Seyfəddin Əliyev Möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib. Seyfəddin Əliyev şanlı tarix yazan vətən oğullarının qəhrəmanlığından, Silahlı Qüvvələrimizin misilsiz rəşadətindən, hərbçilərimizin əzmkarlığından, xalqımızın mübarizliyindən, danışaraq əldə olunan uğurları Prezident-Xalq birliyinin şərtləndirdiyini xüsusi vurğulayıb. Seyfəddin Əliyev bildirib ki, Möhtərəm Prezidentimiz cənab İlham Əliyev müstəqil Azərbaycanın ərazi bütövlüyünü təmin edən, əzəli və əbədi torpağımız olan Qarabağı işğaldan azad edən Müzəffər Ali Baş Komandan, Sərkərdə kimi tarixdə qalacaq.

Tədbirdə Masallı rayon İcra Hakimiyyətinin I müavini Məmmədhüseyn Hüseynov, Tarix-Diyarşünaslıq Muzeyi ərazi ilk partiya təşkilatının sədri Əntiqə Tağıyeva, Bədəlan ərazi ilk partiya təşkilatının sədri Arif Mehtiyev, Masallı Dövlət Regional Kollec ərazi ilk partiya təşkilatının sədr müavini Namiq Ağayev və başqaları mövzu ətrafında çıxış ediblər.

***Rəfiqə***

# "Zəngəzur dəhlizinin

## açılması siyasi etimadın möhkəmlənməsinə xidmət edəcək"

**"Brüssel görüşündən sonra Ermənistanla Azərbaycan arasında münasibətlərin daha normal məcraya keçməsi ilə bağlı bir sıra proqnozlar vardı. Eləcə də liderlərin Soçi və Brüssel görüşü ilə bağlı müsbət mesajları var". Bunu SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.**



İlyas Hüseynovun sözlərinə görə, Nikol Paşinyan da bu barədə məlumat vermişdi ki, görüşün müsbət nəticələri olub: "Ümumilikdə Avropa İttifaqının regionda iştirakçılıq payının artırılması və ya öz iştirakını daha da genişləndirməsi istiqamətində müsbət addımlar var. Regiona investisiya imkanlarını da artırmaq istiqamətində Avropa İttifaqı addımlar atır və bu, sülhün dayanıqlığının artırılmasına və elə də təhlükəsizlik arxitekturasının daha da güclənməsinə xidmət edir. Digər tərəfdən mehriban qonşuluq siyasəti çərçivəsində tərəflərin əməkdaşlıq prioritetlərini müəyyənləşdirilməsi arzu olunandır və bu xüsusda Zəngəzur dəhlizinin açılması tərəflər arasında siyasi etimadın daha da möhkəmlənməsinə praktiki cəhətdən xidmət edəcək. Əsas məsələ Ermənistanın hərbi və siyasi təxribatlarını həyata keçirməməsidir. Eyni zamanda tərəflər arasında humanitar sahədə də bir sıra sövdələşmələr həyata keçirilib. Avropa İttifaqının vasitəçiliyi ilə 16 noyabr hərbi təxribatında saxlanılan şəxslərin Ermənistana verilməsi həyata keçirildi və bundan sonra isə iki Azərbaycan hərbi qulluqçusunun Laçın istiqamətində Ermənistan tərəfindən tutulmasından sonra onların Azərbaycan tərəfinə verilməsi baş tutmuşdur".

Politoloq onu da bildirib ki, humanitar kontekstdə olan münasibətlər iqtisadi və siyasi əlaqələrə də təsir göstərir: "Hətta belə ehtimallar var ki, ilin sonuna qədər də işçi qrupu səviyyəsində görüşlər baş tutsun. Həmçinin dövlət liderlərinin də görüşünün keçirilməsi mümkündür. Bu görüş Rusiyanın vasitəçiliyi ilə həyata keçirilməsi ehtimal olunur. Digər tərəfdən görüşlərin intensiv şəkildə keçirilməsi də bunu göstərir ki, Cənubi Qafqaza güclü maraq var. İl ərzində üç dövlət liderlərinin görüşü keçirilib - Moskva, Soçi və Brüssel görüşlərini qeyd edə bilərik. Digər tərəfdən Brüsseldə iki dövlət lideri arasında təkbətək görüşün keçirilməsi də tərəflər arasında siyasi dialoqun genişləndirilməsinə xidmət edən addımdır. Çünki biz müşahidə edirik ki, tərəflər vasitəçilərin imkanlarından istifadə etməklə görüşlər keçirərkən sonradan münasibətlərdə yenidən gərginlik müşahidə olunur. Lakin təkbətək görüşün keçirilməsi müsbət işartılardan xəbər verir. Ümid edirəm ki, Zəngəzur dəhlizinin çəkilməsi ilə bağlı işlərin sürətləndirilməsi məhz Brüssel görüşündən sonra genişmiqyaslı şəkildə həyata keçiriləcək".

***Gülyana***



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# Əli Əliyevin "VİP"inin ipinin üstünə odun yığmaq olmaz!

**Nikol Paşinyanı özünə "prezident" hesab edən Sevinc Osmanqızının erməni lobbisinin hesabına gün işığı görən qondarma "TV"nə çıxaraq burnunu hara gəldi və necə gəldi dürtən Vətəndaş və İnkişaf Partiyasının (VİP) sədri Əli Əliyev qabaqdangəlmişlik edərək haray salıb ki, bəs onu məhkəməyə veriblər, onu tutacaqmışlar-filan.**

Məsələ ondadır ki, son vaxtlar özünü "dahi siyasətçi" hesab edən, həm də "biləndər" sayan VİP sədri hətta əlində heç bir fakt, sübut olmadan insanlara qarşı qarayaxma kampaniyaları aparır, özü də bu dəfə hansı mövzuda və harada - Nikolun ağuşuna girməyə ona ermənicə "matağ, yes kes serume" (əzizim, mən səni sevirəm) deyərək arvadı Anna Akopyanın əlindən almağa hazır olan Sevinc Osmanqızının "TV"də! Çünki yaxşı bilir ki, həmin "TV"ni ermənilər izləyirlər və orada Azərbaycan əleyhinə deyilən hər kəlməni, hər sözü bizə qarşı silah olaraq istifadə edirlər. Bir sözlə, şaqqa-şaraq, gecəli-gündüzlü düşmənə nökər kimi çalışırlar - əlbəttə ki, əvəzində də nə isə alırlar, hərif-zad deyillər ki (?) Onsuz da düşmən çörəyi yeməyə alışıqdırlar.

### Yaxud, sən özünü "biləndər" kimi apardıqca...

Beləliklə, Əli Əliyev iddia edib ki, 30 noyabr tarixində Dövlət Sərhəd Xidmətinin hərbi helikopterinin qəza uğraması nəticəsində sağ qalan hərbçilər onun həbs olunmasını istəyirlər. Əslində düz də edirlər, bir halda ki, sənin əlində heç bir dəlil, sübut, fakt olmadığı halda Vətəni, dövləti uğrunda hər an canlarından keçməyə hazır olan hərbçilərimizə qarşı sərsəm ittiham yağdırmağa sənə kim izn-ixtiyar verib? Əgər xalqın adından, vətəndaşın danışırsansa, böyük səhvə yol verirsən, çünki sənin "VİP"inin ipinin üstünə odun yığmaq olmaz! Yaxud, sən özünü "biləndər" kimi apardıqca, sözün əsl mənasında, sərsəmləməyə başlayırsan, özü də necə!

Misal üçün, deyirsən ki, qəza zamanı sağ qalan xidmət əməkdaşlarının orada olması şübhə doğurur (?!) Bir insan, özü də siyasi təşkilata rəhbərlik edən şəxs necə vicdansız və ləyaqətini heçə sayan biri olmalıdır ki, istər sifarişli, istərsə də sifarişsiz olaraq öz hərbçilərinə qarşı bu cür olmazın ittihamlar yağdırsın (?!)

İndi bu ünsür durub deyir ki, bəs onu məhkəməyə verib həbs olunmasını istəyirlər. Əslində, düz də edirlər, sənin kimi məsuliyyətsiz, əsassız ittihamlarla siyasi gündəmdə qalmaq istəyənlər qanun qarşısında cavab verməlidirlər, qanun və layiq olmadıqları ittihamlara tuş gələn qəhrəman hərbçilərimiz qarşısında!

O ki qaldı paşinyansevər Sevinc Osmanqızının timsalında həmin ittihamların səsləndirilməsinə, artıq bu faktın özü də nəyin necə və nə cür olduğunu açıq-aşkar isbatlayır.



# Ermənilərin

## unutduqları bəzi nüanslar...

"...Təəssüf ki, dünyada və regionda siyasi vəziyyət indi erməni dövlətinin xeyrinə deyil, bunu təkcə Jirayr Liparityan deyil, cəmiyyətimizin düşünməyi bilən hissəsi də başa düşür. Doğrudur, Liparityan uzun illərdir ABŞ-da yaşasa da, amma tarixi vətəni ilə əlaqələrini kəsmir, yəni "babası" Levon Ter-Petrosyanla yaxın dostluğunu bu gün də davam etdirir". Qeyd edək ki, bunlar erməni etiraflarıdır.

Maraqlıdır ki, onlar sabiq müşavirin Ermənistanın qonşularıyla bağlı səsləndirdiyi bəzi "humanist fikirləri" əsas gətirərək, onun erməni tərəfindən danışıqlara qatılmasını lazım bilməyiblər. Onlar bunu hətta birinci prezidentin müşavirdən "...heç bir tələb irəli sürməyə güc və imkanlarının olmaması" kimi də qələmə verməyə çalışırlar.

Amma yenə də buna baxmayaraq, ermənilər yaxın həftə və aylarda Türkiyənin Ermənistanın maraqlarına xidmət etməyəcək danışıqlar sərgiliyəcəklərini düşünürlər.

Məsələn, bu fikri özünü türkoloq kimi təqdim edən Varujan Qeqamyan adlı birisi öz "Facebook" səhifəsində bəyan edir. Belə ki, o bunu Ruben Rubinyanın Türkiyə ilə danışıqlarda Ermənistanın xüsusi nümayəndəsi təyin edilməsi ilə bağlı mesaja münasibət bildirərkən yazır.

Qeqamyana görə, danışıqlarda yalnız Türkiyə tərəfinin ilkin şərtləri təqdim olunacaq və bu da Ermənistan üçün "yeni təslim və güzəştlərə" gətirib çıxaracaq. Çünki erməni türkoloq danışıqlarda ölkəsini təmsil edəcək Rubinyanın erməni soyqırımını inkar etmək üçün müxtəlif anti-erməni təşəbbüslərini koordinasiya etməklə tanınan səfir Serdar Kılıç qarşısında aciz qalacağını bildirir. Qeqamyana görə, Serdar Kılıç kimi ağır çəkili bir diplomtla nə diplomatik, nə danışıqlar təcrübəsi, nə də müvafiq təhsili olmayan Rubinyanın bir masa arxasında oturması gülüncdür.

Qeyd edək ki, erməni türkoloq bütün bunları Nikol hakimiyyətinin kadr siyasətindəki səhvi kimi deyil, sadəcə olaraq, Ermənistanin Türkiyə və Azərbaycana növbəti güzəşt və məğlubiyyəti kimi təqdim edir.

Maraqlıdır ki, Qeqamyan da bəzi həmkarları kimi, Jirayr Liparityanı bu danışıqlar üçün münasib bir şəxs olduğunu bildirsə də, amma onun artıq "türk agenti"(?) ayaması aldığını xatırlamağı da özünə borc bilir. Və təbii ki, belələrinin bu danışıqlara yaxın buraxılması ermənilər üçün mümkünsüzdür.

Bəs, nə etməli? Deyim ki, Qeqamyan "böyük uzaqgörənliklə" bunun da yeganə yolunu göstərir: antimilli hakimiyyətdən qurtulmaq, yəni Nikol və onun ətrafını hakimiyyətdən uzaqlaşdırmaq.

Doğrudur, bu gün ermənilər dünyada və regionda siyasi vəziyyətin artıq onların xeyrinə olmadığını etiraf etsələr də, amma daxilən bunu "rədd etdiklərini" də gizlətmirlər.

"...Sözün əsl mənasında qəzəbdən guruldayırıq, amma ruhumuzun gizli küncündə başa düşürük ki, indi bu, qaça bilməyəcəyimiz bir reallıqdır. Bu gün dünya bizi... münasibətləri normallaşdırmağa sövq edir".

...Əslində, "yuxarıda yeri olmayıb, aşağını bəyənməyən" ermənilərin özlərindən belə bir tərzdə müştəbehliyi adamda açı gülüş doğurur. Amma, belə görünür ki, bəzi nüansları onlar, nədənsə, unudurlar.

"...Bizi bu "tarixi itkiyə" gətirib çıxaran düşüncənin davam etməsinin mümkün nəticəsi müharibənin yenidən başlaması olacaq ki, əgər bu baş verərsə, biz əlimizdə qalanları da itirəcəyik". Qeyd edək ki, Jirayr Liparityanın öz milləti haqqında dediyi bu fikirləri də ermənilərin unutduqları nüanslar sırasına şamil etmək olar.

***Ağasəf Babayev***

# Serj Sarqsyanın

## qurultay ümidləri doğrulmadı: faktiki antireabilitasiya

Azərbaycan qarşısında ağır məğlubiyyətə uğradıqdan sonra Ermənistanın bir sıra ictimai-siyasi dairələrində baş nazir Nikol Paşinyana qarşı ardıcıl hücumlar, kütləvi etiraz aksiyalarına start verildi. Hətta gözlənilirdi ki, məhz Paşinyanın Qərb dairələrinin güclü dəstəyi ilə devirərək iqtidardan atdığı Serj Saqrsyan və ya Robert Koçaryan komandaları yenidən ölkədaxili situasiyanı əllərinə alaraq hakimiyyətlərini bərpa edəcəklər. O cümlədən, dugər hakimiyyətə iddialı şəxslərin də bu yöndə hərəkətə keçəcəkləri və mövcud iqtidarı ələ keçirəcəkləri ehtimal olunurdu. Xüsusilə revanşistlərin Qarabağdakı məğlubiyyət kartından məharətlə istifadə edərək ölkədəki siyasi hakimiyyət rıçaqlarına sahiblənəcəkləri daha çox inandırıcı görünməkdə idi.

Lakin ölkədəki növbədənkənar parlament seçkiləri və onun nəticələri hər şeyi tərsinə göstərdi - Nikol Paşinyan bu dəfə də seçici etimadı qazanaraq baş nazirlik kürsüsünü saxlamağa müvəffəq oldu. Bəli, bu, gözlənilməz idi və yalnız Ermənistanda deyil, eləcə də oradakı situasiyanı izləyən digər dairələri də təəccübləndirdi. Sual olundu ki, axı müharibədə məğlub olan, ölkənin ordusunu məhv edən, iqtisadiyyatını isə xarici borclara bağlayan dövlət başçısı necə oldu ki, növbəti dəfə xalqın səsini qazana bildi? Bu sualın cavabı ilk olaraq belədir: ağır müharibə məğlubiyyətindən çıxan bir ölkənin yenidən müharibə edəcəyi bu ölkənin bütövlükdə məhv olması anlamını daşıyacaqdı və revanşistlər iqtidara sahiblənsəydilər həmin ehtimallar gerçəkliyə çevriləcəkdi. Bunu düşünən və daha artıq övlad itkiləri ilə üz-üzə qalmaq istəməyən sadə ermənilər yenidən Paşinyana səs verdilər.

Amma bu gün müxalifətdə olan sabiq iqtidarçılar hələ də hakimiyyətə yiyələnmək üçün çoxsaylı gedişlər edirlər. Bu xüsusda sabiq prezident, Nikol Paşinyanın qatı düşməni, Ermənistanın Respublika partiyasının lideri Serj Sarqsyanın ötən həftə siyasi təşkilatının keçirdiyi 17-ci qurultayını xatırlamaq olar. O, ümid edirdi ki, qurultay Ermənistanda əks-səda doğuracaq və o, bu vasitədən istifadə etməklə iqtidar yolunda ilk mərhələ səddini aşmış olacaq.



### Armenianreport: ”Əgər Paşinyanı dəyişmək lazım olsa belə, onu köhnə qvardiya ilə deyil, yeniləri ilə əvəzləmək lazımdır”



### “Sarqsyanın idarəçiliyi vaxtı ətrafında dolanıb-fırlananlar yenə də həmin adamlar idi”

Bununla bağlı Ermənistanın aparıcı KİV-lərindən hesab edilən armenianreport portalı bir sıra maraqdoğurucu analitikası ilə diqqət çəkib. ”Ötən həftənin sonunda Ermənistanın Respublika partiyasının keçirdiyi 17-ci qurultayı özünə xüsusi diqqət cəlb edə bilmədi, hansı ki, bundan əvvəl respublikaçıların yedirdikləri blogerlər və KİV-lər piar kampaniyaları aparırdılar. Bu da aydındır - xalqın Saqrsyanın və Respublika partiyasının idarəçiliyinin ”gözəlliklərini” unutması üçün elə də çox vaxt ötməyib”, deyə adıçəkilən erməni informasiya mənbəsi yazır, o cümlədən qeyd edir ki, üçüncü prezidentin hakimiyyəti idarə etdiyi zaman buraxdığı səhvlərini tərəfdarları vasitəsi ilə etiraf etdirməsinə də zatən çox az adam inanardı. Belə ki, qurultayda Sarqsyanın idarəçiliyi vaxtı ətrafında dolanıb-fırlananlar yenə də həmin adamlar idi və 2018-ci ildə xalq onları çölə atmışdı. Erməni portalı davam edir: ”Əlbəttə, çıxışların böyük hissəsi bu gün xalqımızın üzləşdiyi və Sarqsyanın ölkədəki vəziyyətlə, eləcə də çağırışlarla bağlı ”əzabkeşliyinə” həsr olunmuşdu. ”Situasiya hədsiz dərəcədə təlaşlandırır və partiyanın prioritetləri də məhz bunları diktə edir”, deyə Respublika partiyasının lideri çıxışı zamanı bildirib”.

Armenianreport yazır ki, Serj Sarqsyan reabilitasiya olunmağa cəhd edir, lakin onun etiraflarına ölkədə çox az adam inana bilər və bunun da səbəbləri var: ”O dedi ki, 2018-ci ildə ona görə getdi ki, ölkə daxilində qan tökülməsin və meydanlarda yoplaşan minlərlə insan öz xəyallarındakı ölkəni qururdular”.

### ”Əgər Sarqsyan ölkədə qanın axıdılmaması üçün bu qədər əndişə edirdisə, onda nəyə görə o, Koçaryanla birlikdə 2008-ci ilin 1 mart tarixində qətliam törətmişdilər?”

Ancaq portal əlavə edir ki, reallıq tamamilə başqa cürdür - Sarqsyan divara dirədilmişdi və anlamışdı ki, xalqın böyük hissəsi ona qarşı çıxır. Əvvəlcə Sarqsyan ona qarşı çıxan insanlara qarşı polisi çıxardı və sonradan polislə hərbçilərin güc tətbiqindən imtinalarından sonra hökumət rəhbəri anladı ki, o, artıq məğlub olub. ”Əgər Sarqsyan ölkədə qanın axıdılmaması üçün bu qədər əndişə edirdisə, onda o nəyə görə o, Koçaryanla birlikdə 2008-ci ilin 1 mart tarixində qətliam törətmişdilər?”, deyə haqlı sual edən armenianreport əlavə edir ki, yoxsa on il əvvəl xalqın qanı 2018-ci ildəkindən bir az fərqli idi? ”Koçaryan və Sarqsyan 2008-ci ildə heç bir tərəddüd etmədən polisi və oliqarxların şəxsi dəstələrini erməni xalqına qarşı çıxardılar, 10 il sonra isə onlardan birində vicdan yarandı? Yəni bu gülünc fikrə kimlərsə inana bilərmi?”, deyə erməni portalı suallarını davam edir.

### “Erməni xalqı amneziyadan əziyyət çəkmir ki, Sarqsyanın 2014-cü ilin aprelində bəyan etdiyi fikirlərini unutsun”

Armenianreport Sarqsyanın Qarabağla bağlı fikirlərini də yalan adlandırıb. Belə ki, eks-prezidentin ”Mən ona görə baş nazirliyə namizədliyimi irəli sürmüşdüm ki, Qarabağla bağlı danışıqlar prosesində tərəfimizdən möhkəmləndirilmiş mövqelərimizi daha da etibarlı edək və baş vermiş faciədən qaça bilək”, fikrinə də ironik münasibət bildirən erməni portalı yazır:

”Bu da yalandır. Erməni xalqı amneziyadan əziyyət çəkmir ki, Sarqsyanın 2014-cü ilin aprelində bəyan etdiyi fikirərini unutsun. ”Mən, Serj Saqrsyan rəsmi şəkildə bəyan edirəm ki, bir daha heç vaxt Ermənistanın prezidenti vəzifəsinə namizədliyimi irəli sürməyəcəyəm. Əgər Ermənistan parlament idarəçiliyi sitemInə keçid edərsə, mən baş nazir vəzifəsinə iddialı olmayacağam. Bundan əlavə, mən inanıram ki, bir insan Ermənistana iki dəfədən artıq rəhbərlik etməməlidir”. Ona heç kim inanmadı, çünki hər kəsə aydın idi ki, konstitusiyada edilən düzəlişlər Serj Sarqsyanın planının tərkib hissəsi idi ki, 2018-ci ilin aprelindən sonra hakimiyyətdə qala bilsin. Və o, ”gözləntiləri” aldatmadı - 2018-ci ilin baharında o zamankı parlamentin səs çoxluğu Sarqsyanı baş nazirlik vəzifəsinə namizəd irəli sürdü. Sarqsyan indi bəyan edir ki, hakimiyyətdə qalmasına razılıq verməyi Qarabağla bağlı böyük zəmanətlər əldə etməsi üçün idi. Ancaq burada hər şey aydındır - Qarabağ onun üçün heç nə idi, əsas hakimiyyəti saxlamaq və varlanmaq marağı idi”.

### “İki dəfə eyni palçığa batmaq belə bir çətin gündə yolverilən deyil”

Erməni informasiya mənbəsi daha sonra qeyd edir ki, ədalət naminə Sarqsyan Respublika partiyasının qurultayında bəzi səhvlərini etiraf etməyə razı oldu və onlar da böyük bəhanələrlə. Sarqsyan deyib: ”Mən dəfələrlə etiraf etmişəm ki, bizim idarəçiliyimiz vaxtı hakimiyyətimizin istisinə qızınanlara, bizim vasitəmizlə qazanc əldə edənlərə qarşı kifayət qədər sərtlik nümayiş etdirməmişəm. Xalqla danışarkən birbaşa və açıq danışmamışam. Bəzi hallarda isə etibarlığı haqq etməyən insanlara inanmışam, beləlləri isə kifayət qədər idi. ”Hər şeydə Serj günahkardır!” fikri ən rahatıdır ki, öz səhvlərini və problemlərini başqasının üzərinə yükləyəsən”.

Armenianreport yazır ki, bu, üçüncü prezidentin açıq-aşkar riyakarlığıdır. Belə ki, kifayət qədər var-dövlət toplayan və hakimiyyətin istisinə qızınanların başda dayananı onun (Sarqsyanın) qardaşı Saşik idi. Məhz Ermənistanın biznesini və iqtisadiyyatını boşaldan korrupsiya sxemi də ona məxsus idi ki, həmin vaxtlar hər kəs prezidentin qardaşına pul ödəyirdi. ”Serj Sarqsyan devrildikdən sonra Saşiki ”ailədə ən günahsız insan” adlandırdı, amma onun hakimiyyəti zamanı bu ”gühansız insanın” bütün ölkə boyunca məşhur və xarakterik ləqəbi var idi - ”Saşik 50 faiz”.

Müəllif bu ləqəbin izahını da verib - əgər kimsə biznesə qoşulmaq istəyirdisə Saşik özünün 50 faizini tələb edirdi, imtina edənlərin isə əlindən həmin biznes sadəcə alınırdı.

### Serj Sarqsyanın digər qardaşı Levon haqqında da maraqlı faktlar var. Onun 625 min dollar vergi yayınması qeydə alınıb. Bunu isə Sarqsyan qurultayda etiraf etmədi...

”Göründüyü kimi, Sarqsyanın və Respublika partiyasının reabilitasiya cəhdləri puç oldu. Bəli, indi bizim heç birimizə asan deyil, Paşinyan həqiqətən də gözlənildiyindən də böyük populist çıxdı. Ancaq əsas məsələni etiraf etməmək olmur - Koçaryandan və Sarqsyandan fərqli olaraq o korrupsioner deyil, caynaqlarını dövlət büdcəsinə atmır, həmfikirləri biznesmenlərin otkatlarına sahiblənmir. Əgər Paşinyanı dəyişmək lazım olsa belə, onu köhnə qvardiya ilə deyil, yeniləri ilə əvəzləmək lazımdır. İki dəfə eyni palçığa batmaq belə bir çətin gündə yolverilən deyil”, erməni portalı yazıb.

***Rövşən RƏSULOV***

ANALİTİK

Milad möcüzəsi:

# Rusiyalı qız 20 il sonra Azərbaycanda atasını tapdı

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması” istiqaməti çərçivəsində hazırlanıb.*

**Svetlana Perşina: “Atamla görüşmək üçün Bakıya uçdum. Proqram işçiləri atama qızını tapdıqlarını və görüş olacağı barədə xəbərdarlıq etməmişdilər...”**



Onun hekayəsini Milad möcüzəsi adlandırmaq olar. 20 ildən sonra qızı Azərbaycanda atasını tapıb. İvanovolu fotoqraf Svetlana Perşina bütün həyatı boyu atasını axtarıı. Uzun müddət ona qəhrəmancasına həlak olan dənizçi atası haqqında əfsanə danışırdılar. Anasının ölümündən sonra qız uşaq evinə düşsə də, atasının sağ olduğunu və başqa ölkədə yaşadığını öyrənib. Svetlana uzun illər davam edən axtarışa başladı. Və bu yaxınlarda, ”Zov krovi” (Qan çağırışı) axtarış proqramının köməyi ilə Sveta atasını tapdı. Ata, Azərbaycanda yaşayır, cərrah işləyir. ”Moskva-Baki” platformasına müsahibəsində Svetlana vətənində atası ilə görüşünün necə keçdiyini, azərbaycanlı qohumlarının onu necə qəbul etdiyini və buna onu nəyin ruhlandırdığını danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.



***- Niyə atanızı tapmaq qərarına gəldiniz?***

- Mən yenicə püxtələşirdim və başa düşdüm ki, ailəmi və mənşəyimi bilmək hüququm var. Ailənin tam tarixini bilmək əlbəttə, çox yaxşı olardı. Mənim xüsusi gözləntilərim yox idi, çünki o vaxt mənim artıq öz ailəm var idi. Amma tez-tez düşünürdüm ki, niyə qohumlarımın heç birinə bənzəmirəm. Bəlkə atama oxşayıram? Və onun necə göründüyünü görmək istədim. Məhz o zaman ağlıma fikirlər gəldi ki, onu tapmaq əla olardı, amma haradan başlayacağımı başa düşmədim. Bir dostum onu transfer yolu ilə axtarmağı təklif etdi, razılaşdım. Amma hər şeyin bu qədər tez alınacağını düşünməzdim. Mənə zəng etdilər və bir ay sonra atamla görüşmək üçün Bakıya uçdum. Proqram işçiləri atama qızını tapdıqlarını və görüş olacağı barədə xəbərdarlıq etməyiblər. Bu vəziyyəti mən Bakıda ərim və uşağımla sahil boyu gəzəndə bildim. Və təbii ki, panikaya düşdüm və qorxdum. Ancaq yanımda onu tapmaqda mənə kömək edən bütöv bir komanda var idi. Bu istiqamətdə mənə elə güclü təkan verdilər ki, bundan imtina etmək mümkün deyildi. Sonra intuitiv olaraq hiss etdim ki, atamla görüşümüz yaxşı keçəcək.

***- Bu axtarışda sizin üçün ən dəhşətlisi nə olub?***

- Onun həyatında özümü müəyyən etmək mənim üçün vacib idi və bəlkə də ən dəhşətlisi emosiyalarımın öhdəsindən özüm gəlməyim idi.

***- Atanız həyatında tanımadığı bir qız övladının peyda olması barədə məlumatı necə qəbul etdi?***

- O, sakit reaksiya verdi. Verilişdə nümayiş olunan görüşümüzün kadrları ilk çəkilişdən lentə alınıb ki, başa düşəsiniz. O, Qarabağ müharibəsindən keçib, cərrah olduğu üçün stressə davamlıdır. Təbii ki, bu vəziyyəti həyat yoldaşına necə deyəcəyindən narahat idi. Həyat yoldaşı bu xəbəri çox iffətlə qarşıladı. Onların evinə kameralarla gəldiyim üçün ondan üzr istədim. Axı plana görə, atamla görüşümüzün çəkilişləri onun işlədiyi xəstəxanada aparılmalı idi. Ancaq evdə alındı. Atamın da uşaqları var-bir oğlu (Moskvada yaşayır), bir qızı var. Qızının başına faciə gəlib, avtomobil qəzasına düşüb. Bu sentyabrda olub, mən də sentyabrda onların ailəsinə gəldim. Nəsə çox simvolik alındı.

***- Bütün bu müddət ərzində şərq köklərinizi hiss etdinizmi?***

- Mən böyüyəndə heç kim buna diqqət yetirmirdi. Məsələn, azərbaycanlı ola biləcəyimi düşünmürdüm. Nadir hallarda soruşurdular ki, hansı millətdənəm, bəzən mənimlə gürcü və ya azərbaycanca danışmağa çalışırdılar (gülür). Amma daxilimdə həmişə bir sual yaranırdı: mənim milliyyətim nədir? Və sonra anam ölümündən bir müddət əvvəl atamın həqiqətən kim olduğunu söylədi. Bütün uşaqlığımda mənə atamın dənizçi olduğu və faciəvi şəkildə boğulduğu barədə əfsanə danışırdılar. Sonra mənə dedi ki, o, Gürcüstandan olan cərrahdır. Yəni, onun haqqında məlumatları bir az fərqli xatırlayırdı, amma biz onu tapa bildik.

- Həyat yoldaşınızla birlikdə atanızı axtarırdınız. Sənə axtarışı dayandır desəydi, istəklərini dəstəkləməsəydi, axtarmağı dayandırardınmı?

- Bu məqamda nəticəni bildiyim üçün axtarışdan əl çəkməzdim. Və həmin anda... bunu demək çətindir. Yəqin ki, mənim üçün başqa ölkəyə uçmaq çox çətin olacaqdı, çünki o vaxt mənim körpə uşağım var idi, amma mütləq axtarışdan əl çəkməzdim.

***- Əriniz və uşağınızla ilk dəfə Bakıya gələrkən sizi ən çox təsirləndirən nə oldu?***



- Biz gələndə artıq axşam idi, çox isti idi. İşıqlarla dolu gözəl bir şəhər gördüm və ətrafda bu qədər tanış simaların olmasına təəccübləndim. Qeyri-adi hisslərim yarandı. Xarici görünüşcə mənim kimi insanların əhatəsində olduğumu düşünərkən özümü tapdım. Elə bir hiss var idi ki, mən onlarla vahid bir bütövlükdə birləşdim. Sanki evə gəlmişəm. Təbii ki, Azərbaycan mətbəxini bəyəndim. Rusiyada da məşhurdur və mən onu İvanovoda sınamışam. Amma Bakıya gələndən sonra anladım ki, Azərbaycan mətbəxi onun vətənində daha yaxşıdır.

***- Milli xörəklərdən nəsə bişirməyi özünüz öyrənmisiniz?***

- Başa düşdüm ki, burada yemək bişirənlərlə rəqabət aparmaq çox çətindir. Bu prosesə girməyə belə qorxuram, çünki mənim üçün bu bir növ sehrdir. Hər şeyi necə dadlı bişirirlər. Yox, mən doğrudan da Azərbaycan xörəklərindən heç nə bişirməyi bilmirəm. Hələlik, sadəcə yeməyi sevirəm (gülür).

***- Hazırda Azərbaycanda çoxlu qohumlarınız var?***

- Bəli, ikinci və üçüncü dərəcəli qohumlar da var. Amma Azərbaycanda, başa düşdüyüm kimi, belə anlayışların olmadığını gördüm. Burada əmi, xala, bibi, dayı uşaqları sadəcə qardaş və bacılardır. Bütün azərbaycanlı qohumlarım məni dərhal ”çat”a əlavə edib təbrik etdilər. İlk vaxtlar mənə çox qəribə gəldi ki, onlarda heç bir yadlıq yox idi. Dərhal məni böyük ailələrinə qəbul etdilər. Mən isə daim fikirləşirdim ki, niyə hər şey çox yaxşıdır, axı çox vaxt belə olmur (gülür). Çünki digər qohumlarımla çox çətin münasibətim var. Onlar kifayət qədər soyuq adamlardır, məni həmişə məsafədə saxlayırlar. Azərbaycanlı qohumlar isə dərhal isti qarşıladılar. DNT testi artıq onlar üçün vacib deyildi. Hər gün mənə zəng edirdilər, mənimlə məmnuniyyətlə tanış olurdular.

***- Hazırda Bakıdakı qohumlarınızla ünsiyyətiniz necədir? Sizi ziyarətə gəliblər?***

- Bəli, İvanovoya məni ziyarətə gəlmişdilər. Əla vaxt keçirdik. Bir ay sonra biz onları Gürcüstanda yenidən gördük. İşlə bağlı bir səfər planlaşdırmışdım və ora gəldilər. Bir-birimizi daha yaxından tanımaq üçün bir həftə böyük bir mehmanxanada yaşadıq (gülür).

***- İvanovoda "Sənin qızın olmaq gözəldir" adlı şəxsi fotosərginiz açılıb. Həyat hekayənizdən ilham aldınız?***

- Bütün bu hekayəni həzm etmək emosional baxımdan çətin idi. Bu vəziyyətə necə münasibət bildirmək olar, hər şey əla, gözəl, hər şey ürəkdən, doğma bir şəkildə. Amma məncə xoşbəxtliyin öhdəsindən gəlmək çətin olanda belə olur. Və başqa ailələrdə ata-qız münasibətlərinin necə inkişaf etməsi ilə maraqlandım. Kadrda öz duyğularımı ifadə etmək, başqa insanların hisslərini görmək istəyirdim. Mən bu layihəyə asta-asta başladım. Fotoda adi insanlar, ata və qızı, müxtəlif tiplər, fərqli hekayələr var.

- Sərginizin interaktiv hissəsi var ki, orada hər kəs öz atasına qeyd yazmaqla mesaj buraxa bilər. Atanıza nə yazmısınız?

- Orada çox yazdım, vaxtaşırı gəlib nəsə yazırdım. Qeydlərin birində deyilir: ”Mənə turp deyəndə xoşuma gəlir!” Bu, artıq bizim, ailə və şəxsi aramızda zarafatdır. Mən gözlənilmədən atama yaxınlaşdım. Sanki bir növ prototip kimi böyüyürdüm, çünki atam və mən başmaqlarımızı eyni şəkildə dəhlizə atırıq. Hardasa bizim həyata münasibətimiz də eynidir, halbuki ondan əvvəl bir-birimizi tanımırdıq. Belə çıxır ki, bir-birini yarı baxışdan, sadəcə olaraq, bir-birlərinə baxmaqla başa düşürlər. Atanızın qızı olmaq çox gözəldir (gülür).

***- Qarşıda Yeni il bayramları var, onları necə, harada və kiminlə keçirəcəksiniz?***

- Artıq Yeni il bayramları üçün Bakıya bilet almışıq. İki həftəlik Bakıya uçacağıq. Artıq hədiyyələr yığıram. Təbii ki, bu, ”Sənin qızın olmaq gözəldir” sərgisindən poster olacaq. Onun həyat yoldaşı Svetaya gözəl şəkillər gətirəcəyəm ki, işində istifadə etsin. Ümumiyyətlə, səfərə hazırlaşırıq (gülür).

***- Sevdiklərini tapmaq istəklərinə şübhə edən insanlara nə məsləhət görərdiniz?***

- Mənə elə gəlir ki, doğma insanı tanımamaq bir boşluqdur. Rədd olunsanız və qəbul edilməsəniz, qorxulu və ağrılı ola biləcəyi aydındır, amma yəqin ki, bu, ilk növbədə özünüz üçün edilməlidir. Qohumları axtarmağa dəyər. Axı axtardığın qohumdan başqa onu əhatə edənlər də var. Və bəziləri ilə yaxınlaşa bilərsiniz. Ailə əlaqəsi dostluqdan daha güclüdür. Özüm də hiss edirəm ki, indi ünsiyyətdə olduğum insanları tanımadığım üçün onları özünə çəkirəm. Siz onsuz da onlara bağlısınız və insanı cizgilərinə görə qiymətləndirməyəcəksiniz- qardaş qardaşdır, əmi əmidir və s. Atamı tapmağımdan əlavə, böyük bir ailəmi də tapdım. Oradakı hər bir insan çox fərdidir və həyatıma bəzi canlı emosiyalar və xatirələr gətirir. ”Zov Krovi” (”Qan çağırır”) sadəcə proqram adı və sözləri deyil, bu, realda işləyir.

***Müəllif - Tatyana Novikova***
***Tərcümə - Elçin Bayramlı***

Səs

22 dekabr
2021-ci il

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

# Ronaldodan xeyirxah addım: formasını xeyriyyə hərracına bağışladı



**"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo formasını xeyriyyə hərracına bağışlayıb. Qol.az "La Provinicia"ya istinadən xəbər verir ki, 36 yaşlı hücumçu Kanar arxipelaqına məxsus Palma adasında Kumbre Vyexa vulkanının püskürməsi nəticəsində zərər çəkənlərə maliyyə yardımı toplamaq üçün bu addımı atıb. "Hətta vulkanın gücü də Palma ilə müqayisə oluna bilməz. Gözəl adaya dəstəyim" deyə o, köynəyin üzərinə yazıb.**

Dekabrın 24-də hərraca çıxarılaacaq formadan əldə olunan gəlirlər zərərçəkənlərə yardım məqsədilə istifadə olunacaq. Qeyd edək ki, sentyabrın 19-da adada vulkan püskürməsi başlayıb. 88 gün ərzində 1600-dən çox bina dağıdılıb, 74 km yol zədələnib, 7 mindən çox insan təxliyə edilib.

# Yaponiyada üç cinayətkar edam edilib

Yaponiyada ədliyyə naziri Yosihisa Furukavanın əmri ilə edam cəzasına məhkum edilmiş üç cinayətkar edam edilib. Trend yerli KİV-lərə istinadən xəbər verir ki, cinayətkarların adları açıqlanmır. Bu, cari ilin oktyabrında vəzifəyə gələn baş nazir Fumio Kişida dövründə ilk edam hökmünün həyata keçirilməsidir.

Yaponiyada sonuncu dəfə edam 2019-cu ildə həyata keçirilib. O, yapon ailəsinin qətlində əli olan ÇXR vətəndaşı idi. Yaponiya Vəkillər Assosasiyası dəfələrlə ölkədə ölüm hökmünün ləğvini və onun ömürlük həbslə əvəz olunmasını tələb edib. Edam yalnız ölkənin ədliyyə nazirinin yazılı əmrindən sonra həyata keçirilir.



# Kimlərdə koronavirusa qarşı super immunitet formalaşır?



***ABŞ-ın Oreqon Sağlamlıq və Elm Universitetinin alimləri tam peyvənd olunmuş insanlar üzərində maraqlı araşdırma aparıblar. Sözügedən araşdırmaya görə, tam peyvənd olunmuş insanlar sonradan koronavirusa yoluxduqları zaman "super immunitet"ə sahib olurlar.***

Tam peyvənd olunmuş, lakin virusa yoluxmayanlarla tam peyvənd olunmuş və koronavirusa yoluxanlar müqayisə edilib və ikinci qrupun anticisim səviyyəsinin 2000 faiz yüksək olduğu müəyyən edilib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**